

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 119 (7374) / Cümə, 5 iyul 2019-cu il


# II Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan idmançıları və məşqçiləri üçün mükafatlar müəyyənləşib



PREZİDENT İLHAM ƏLİYEV SƏRƏNCAM İMZALAYIB

Ətraflı bax: səh.2

⇧ Bax: səh. 4



## Rövnəq Abdullayev BANM kollektivinə təbrik məktubu göndərib

⇧ Bax: səh. 8



*İrena Vaisvilayte:*

## İnanıram ki, hər bir nümayəndə Bakı sessiyasından öz ölkəsinə xoş təəssüratlarla qayıdacaq

## "Heydər Əliyev Azərbaycan gəncliyinin düşüncəsində. 50 il"



⇨ Bax: səh. 3

⇧ Bax: səh. 5



## Bakı Ali Neft Məktəbində "Məzun Günü"





⇧ Bax: səh. 6



## KİV rəhbərləri Rusiya Xarici İşlər Nazirliyində


7 "Aztəminatlı ailələrə qayğı"

15 "İndi Ermənistanda nə qanun var, nə də qanunçuluq"

16 İsti havaların əks təsirləri və qorunma üsulları

# II Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan idmançıları və məşqçiləri üçün mükafatlar müəyyənləşib



**Prezident İlham Əliyev Minsk şəhərində keçirilən II Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların müəyyən edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Minsk şəhərində keçirilən II Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

- birinci yeri tutan hər bir idmançıya 50 min manat, onun şəxsi məşqçisinə 25 min manat;

- ikinci yeri tutan hər bir idmançıya 30 min manat, onun şəxsi məşqçisinə 15 min manat;

- üçüncü yeri tutan hər bir idmançıya 20 min manat, onun şəxsi məşqçisinə 10 min manat;

- milli yığma komandaların baş məşqçilərinə ən yüksək nəticə göstərmiş bir idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə);

Nazirlər Kabineti Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## *Əli Əhmədov:* Növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı yayılan məlumatlar əsassızdır



Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı yayılan məlumatlara aydınlıq gətirib.

Trend-in məlumatına görə, Əli Əhmədov jurnalistlərə açıqlamasında bu məlumatların əsassız olduğunu bildirib:

"Azərbaycanda Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı şayiələrin səbəbini bilmirəm. Ola bilsin ki, jurnalistlər bu informasiya ilə oxucularının sayını artırmaq istəyirlər. Ölkədə növbədənkəmar parlament seçkilərinin keçirilməsi ilə bağlı hər hansı səbəb yoxdur".

Baş Nazirin müavini qeyd edib ki, Konstitusiyada göstərilib ki, parlament seçkiləri 5 ildən bir noyabr ayında keçirilməlidir: "Qanunvericiliyə əsasən, növbəti parlament seçkiləri 2020-ci ilin noyabrında keçiriləcək. Bu ilin dekabrında isə növbəti bələdiyyə seçkiləri keçiriləcək".

## YAP Silahlı Qüvvələrin Yardım Fonduna köçürmələri davam etdirir



Yeni Azərbaycan Partiyası Silahlı Qüvvələrin Yardım Fonduna köçürmələri davam etdirir. Elə təkcə partiyanın Nəsimi rayon təşkilatı fonda 20 min manat köçürüb.

Trend-in məlumatına görə, bunu Yeni Azərbaycan Partiyası İcra katibinin müavini Siyavuş Novruzov jurnalistlərə deyib.

S.Novruzov qeyd edib ki, Milli Məclisin deputatlarının hərəsi 500 manatdan yardım ediblər: "Partiya üzvü olmayan, bitərəf deputatlar da bu prosesə qoşulub. Hesab edirəm ki, kifayət qədər məbləğ toplanacaq".

## *Mübariz Qurbanlı:* Silahlı Qüvvələrə Yardım Fonduna dəstək göstərmək hər bir vətəndaşın borcudur



YAP Sədrinin müavini Əli Əhmədovun Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasına mən də qoşulmuşam.

Bunu jurnalistlərə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

M.Qurbanlı vurğulayıb ki, Silahlı Qüvvələrə Yardım Fonduna dəstək göstərmək hər bir vətəndaşın borcudur.

Onun sözlərinə görə, YAP sədrinin müavini Əli Əhmədovun təşəbbüsü cəmiyyət tərəfindən dəstəklənir, müdafiə olunur: "Hər bir partiya üzvü də öz imkanı çərçivəsində bu yardım kampaniyasında iştirak edir".

# Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası keçirilib

## BAŞ NAZİR NOVRUZ MƏMMƏDOV NÖVBƏTİ MÜDDƏTƏ NEFT FONDUNUN MÜŞAHİDƏ ŞURASININ SƏDRİ SEÇİLİB

**İyulun 4-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının iclası keçirilib. ARDNF-nin Müşahidə Şurasının qərarı ilə Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov növbəti müddətə Müşahidə Şurasının fəaliyyətdə olan sədri seçilib.**

Fondun İctimaiyyətlə əlaqələr departamentindən AZƏRTAC-a bildirilib ki, iclasda ARDNF-nin 2018-ci il üzrə maliyyə fəaliyyəti haqqında illik hesabatına, fondun 2018-ci il büdcəsinin icrası barədə məsələlərə baxılıb. Müşahidə Şurası tərəfindən ARDNF-in 2018-ci ildə maliyyə fəaliyyəti haqqında hesabatına dair müstəqil auditorun ("PraysvoterhausKupers



Audit Azərbaycan" MMC) rəyi, 2018-ci il büdcəsinin icrası barədə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi, habelə Neft Fondunun 2018-ci il büdcəsinin gəlirlərinin 17 milyard 614,1 milyon manat və yaxud 115 faiz səviyyəsində, büdcə xərclərinin isə 11 milyard 455,6 milyon manat və ya 99,8 faiz səviyyəsində icra edildiyi nəzərə alınaraq fondun 2018-ci il büdcəsinin icrasının təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi qərara alınıb.

Müşahidə Şurası tərəfindən, eyni zamanda, ARDNF-nin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlarda Neft Fondunun maliyyə və büdcəsinin icrası barədə hesabatların son təqdim edilməsi müddətində dəyişikliklərin edilməsi məqsədəuyğun hesab olunub və bu dəyişikliklərin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edilib.

# Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı üçün geniş perspektivlər var



İyulun 4-də Baş Nazirin müavini Əli Əhmədov Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Şərq Tərəfdaşlığı çərçivəsində Avropa İttifaqının yardımı hesabına Azərbaycanda həyata keçirilən layihələrin icra vəziyyəti müzakirə olunub. Ölkəmizdə həyata keçirilən layihələrə Avropa İttifaqının göstərdiyi dəstəyə görə minnətdarlığını bildirən Əli Əhmədov qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi üçün hökumət tərəfindən bütün zəruri addımların atıldığını qeyd edib. Baş Nazirin müavini Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu deyib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas isə bildirib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud olan etibarlı tərəfdaşlıq əlaqələri xüsusi əhəmiyyətə malikdir. O, növbəti illərdə Fəaliyyət proqramları çərçivəsində Aİ-nin Azərbaycanda icra olunacaq yeni layihələrin daha səmərəli və vaxtında həyata keçirilməsi üçün zəruri olan işlər haqqında fikirlərini də bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

# "Heydər Əliyev Azərbaycan gəncliyinin düşüncəsində. 50 il"

## YAP İcra Katibliyində keçirilən bu adda layihənin yekunu və eyniadlı portalın təqdimat mərasimində Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov gəncləri Heydər Əliyev irsini dərindən mənimsəməyə, Prezidentimiz İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırdı

**Dünən Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində "Heydər Əliyev Azərbaycan gəncliyinin düşüncəsində. 50 il" adlı layihənin yekunu və eyni adlı portalın təqdimat mərasimi keçirildi.**




Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarxın nümayişindən sonra YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri, layihənin koordinatoru Salman Salmanov layihə və portal haqqında geniş məlumat verdi. Bildirdi ki, dövlətimizin başçısı İlham Əliyevin "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir" tezisi layihə üçün xəritə rolunu ifadə edir. Layihənin iştirakçılarının çoxluğu bir daha bu mühüm məqama işıq salır ki, ümummilli lider Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərinin miqyası geniş olmaqla yanaşı, yüksək dəyərləndirilir, illər keçdikcə bu günümüz və gələcəyimiz üçün möhkəm təməl olduğu bir daha təsdiqlənir.

Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov gənclərin həyata keçirdiyi layihəni yüksək qiymətləndirdi: "Ulu öndər Heydər Əliyevin fəaliyyətinə gənclərin düşüncələri əsasında qiymət verilməsi gözəl təşəbbüsdür. Müasir həyatın yeni imkanlarından istifadə edərək, gənclərin ulu öndər Heydər Əliyevin xidmətləri ilə bağlı öz fikirlərini bölüşmələri təqdirəlayiqdir. Düşünürəm ki, bu portal kifayət qədər məşhur olacaq. 3 mindən artıq gəncin bu layihəyə qatılması onların Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinə verdikləri böyük dəyərin göstəricisidir. Gənclərimizin layihədə iştirakı hələ də davam edir."

"Azərbaycanın müasir tarixinin 50 illik dövrü Heydər Əliyevin adı ilə bağlıdır" söyləyən Ə.Əhmədov bildirdi ki, Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə seçilməsi tariximizin dönüş nöqtəsi kimi yaddaşlara həkk olunub: "Yaşlı nəsil yaxşı xatırlayır ki, 60-cı illərə qədər Azərbaycan bütün sahələrdə xoş olmayan günlərini yaşayırdı. İnsanların həyatı yaxşı deyildi. Nəticə etibarilə Azərbaycan keçmiş İttifaqın ən geridə qalmış respublikalarından biri idi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə seçilməsindən çox qısa zaman sonra Azərbaycanda o zaman müşahidə olunan xoşagəlməz proseslərin qarşısı alındı, iqtisadiyyat inkişaf etməyə başladı, çoxlu sayda sənaye müəssisələri yaradıldı. Ölkənin sənaye potensialı yüksəldi, kənd təsərrüfatında böyük dönüş başladı. Azərbaycanda çox güclü kənd təsərrüfatı və aqrokompleks yaradıldı. Ölkəmizdə üzümçülük, pambıqçılıq çox sürətlə inkişaf etdi. Bir tərəfdən sənayenin və kənd təsərrüfatının inkişaf etdirilməsi, digər tərəfdən müasir texnologiyalar əsasında aqrosənaye komplekslərinin yaradılması insanların rifahını köklü surətdə dəyişdi. Məhz o zamandan Azərbaycanın şəhərlərinin, kəndlərinin siması dəyişdi. Bakı şəhəri müasirləşdi, yeniləşdi. Çoxlu sayda mənzil tikildi."

O da bildirildi ki, təkcə sənaye və kənd təsərrüfatı deyil, elm və təhsil, səhiyyə də ciddi şəkildə inkişaf etdi. Çoxlu məktəblər, ali təhsil ocaqları yaradıldı: "Eyni zamanda, Azərbaycan gənclərinin keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almalarına imkan yaradıldı. Bu gün ölkəmizdə ayrı-ayrı sahələrdə çalışıb davamlı inkişafa töhfələr verən şəxslərin böyük əksəriyyəti həmin kateqoriyadan olan insanlardır. Mədəniyyətin, incəsənətin inkişafına davamlı töhfələr verildi. Azərbaycanın bir çox dəyərli elm, mədəniyyət, incəsənət adamları o dövün ən yüksək adlarına layiq görüldülər. Bütün bunların hamısı ulu öndər Heydər Əliyevin Azərbaycan qarşısında etdiyi möhtəşəm xidmətlərdir ki, bunların sayəsində ölkəmiz böyük bir inkişaf mərhələsi keçdi."

Ə.Əhmədov vurğuladı ki, ulu öndər Heydər Əliyevin Azərbaycan qarşısındakı xidmətləri yalnız iqtisadi inkişafla bitmirdi: "Milli şüurun inkişafı həmin dövrün ən xarakterik cəhəti idi. Azərbaycan xalqında özünə inam hissi artdı, gələcəyə daha böyük inamla baxdı. Bütün bunların hamısı milli özünüdərkin, milli qürurun ayrı-ayrı elementləri olaraq, hər bir xalq üçün önəmli olan azadlıq hissinin möhkəmlənməsinə böyük təsir göstərir. Əzilən, özünü dərk edə bilməyən bir millətin azadlıq hissi ilə özünü dərk edən, öz qürurunu ifadə edən bir millətin azadlıq hissləri təbii ki, fərqli olur. Bu mənada hesab edirəm ki, ulu öndər Heydər Əliyevin 70-ci illərin əvvəllərində Azərbaycana rəhbərlik etməsi və ölkəmizin mühüm inkişaf mərhələsinə qədəm qoyması Azərbaycanın milli özünüdərkinin çox vacib bir mərhələsini təşkil edir. Biz bunun nəticəsini sovet hökumətinin mövqeləri zəifləyəndə Azərbaycanda azadlıq ruhunun özünü aydın ifadə etməsində gördük. 90-cı illərin əvvəllərində Azadlıq meydanında möhtəşəm nümayişlər Azərbaycan xalqının milli ruhunun ifadəsi idi. Bu inkişaf olmasaydı, Azərbaycan xalqı özünü bir millət olaraq azad yaşamağa haqqı çatan toplum kimi dərk etməsəydi, yəqin ki, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərindəki milli azadlıq hərəkatı da o vüsəti əldə etməzdi."

"Çox sevindirici haldır ki, müstəqil Azərbaycanın formalaşması, qüdrətinin artması missiyası da ulu öndər Heydər Əliyevin əzəmətli çiyinləri üzərində qərar tutmalı oldu" söyləyən Ə.Əhmədov qeyd etdi ki, Azərbaycan 90-cı illərin əvvəllərində müstəqilliyini Sovet İttifaqının dağılması ilə əldə etdi: "Amma yenə də ölkəmizin real müstəqil dövlət kimi formalaşması, təsdiqi ulu öndər Heydər Əliyevin xidməti kimi tariximizə yazılıb. 90-cı illərin əvvəllərində Azərbaycan müstəqillik əldə etdikdən sonra o dövrün iqtidarı Azərbaycanın müstəqil dövlət kimi formalaşmasını təmin etmək iqtidarında deyildi. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ölkəmizi mövcud problemlərdən xilas etdi. Müstəqil Azərbaycan dövləti yarandı. Azərbaycanın siyasi sistemi formalaşdı. Ölkəmizin təhlükəsizliyi təmin edildi. Cəbhə xəttində atəşkəs əldə olundu. Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı. Müstəqil dövlət kimi özünü dünyaya təqdim etdi. İqtisadi islahatlar həyata keçirildi. Neft strategiyasının əsası qoyuldu. Bunun nəticəsində Azərbaycan iqtisadiyyatı böyük inkişaf mərhələsi yaşayır. Bugünkü Azərbaycanın iqtisadi bünövrəsi qoyuldu. Beləliklə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 10 ildə yeni Azərbaycan quruldu."





Bildirildi ki, Azərbaycan Heydər Əliyev siyasətinin uğurlarını yaşayır. Dövlətimizin başçısı İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, bu gün əldə etdiyimiz nailiyyətlər Heydər Əliyev siyasətinin nəticəsidir. Azərbaycan böyük uğurlar əldə edib.

"Əlbəttə, zaman öz düzəlişlərini etməyi tələb edir" söyləyən Ə.Əhmədov vurğuladı ki, bu düzəlişlər uğurla reallaşır: "Bütövlükdə Azərbaycanın uğurlu inkişafının təməlində Heydər Əliyev siyasəti dayanır. Bu, elə bir siyasət, strategiyadır ki, bunun əsasında Azərbaycan bundan sonra da uzun illər öz yüksəlişini təmin edəcək. Azərbaycan daha da qüdrətlənəcək, möhkəmlənəcək. Azərbaycan xalqının milli həmrəyliyi daha da güclənəcək, möhkəmlənəcək. Azərbaycanın dünya birliyində mövqeləri artacaq. Azərbaycan regional, beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsində xüsusi fəallıq göstərir. Ölkəmiz bu layihələrin əsas təşəbbüsçüsü və iştirakçısıdır. Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət və bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan nisbətən gənc olan dövlətlər sırasında ən uğurlu dövlətdir. Azərbaycan bu illər ərzində iqtisadiyyatını 3 dəfədən çox artırıb. İnsanların rifah halının yaxşılaşdırılması istiqamətində mühüm uğurlar əldə olunub. 2019-cu ilin 6 ayı ərzində ölkəmizdə minimum əməkhaqqı və pensiyalar iki dəfə artırılıb. Digər kateqoriyadan olan vətəndaşlara yardımlar və güzəştlər də artırılıb. Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafı, əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi nüfuzunun artmasında mühüm rol oynayır. Bu gün Azərbaycana çiçəklənən, perspektivi olan ölkə kimi yanaşılır və dəyər verilir. Bu, həm reytinq agentliklərinin, həm də ölkəmizə gələn xarici qonaqların verdikləri qiymətdir. Dünyanın heç bir yerində Bakı, ümumilikdə Azərbaycan qədər müasirləşən, yeniləşən ölkəni təsəvvür etmək mümkün deyil. Bakımızın, Azərbaycanımızın simasının dəyişməsi mühüm nailiyyətdir. 50, 100 ildən sonra bu gün yaradılan infrastruktur Azərbaycanın öz imkanları ilə qürur duymasına imkan yaradacaq."



YAP Sədrinin müavini bildirdi ki, bu gün Azərbaycanın tarixinin yeni mərhələdə inkişaf etdiyini görürük: "Bu, müasirlikdir, yenilikdir, möhtəşəmlikdir, daha sürətli inkişaf və insanlara daha yaxşı yaşamaq imkanlarının yaradılmasıdır. Prezident İlham Əliyevin mövcud imkanlardan istifadə edərək Azərbaycanın daha da müasirləşməsi, yeniləşməsi istiqamətində atdığı addımlar daha möhtəşəm, tarixi addımlardır. Bu fəaliyyət uzun müddət Azərbaycanın davamlı inkişafı üçün əsas yaradıb."

O da vurğulandı ki, 10, 15 il bundan əvvəl beynəlxalq mətbuatda Azərbaycan haqqında yalnız problemlərlə bağlı informasiyaları əldə etmək olardı. Bu gün ən aparıcı mətbu orqanlarda Azərbaycanın möhtəşəm inkişafı ilə bağlı materiallar əsas yer tutur. Azərbaycan haqqında tez-tez deyilən "çiçəklənən və inkişaf edən ölkə" kimi fikirlər qürurvericidir.

"Gənclərin iştirak etdikləri tədbirdə Azərbaycanın uğurlarından belə geniş şəkildə ona görə bəhs edirəm ki, bütün bunların hamısı gənclərin qayğısız, xoşbəxt yaşamaları üçündür" söyləyən Ə.Əhmədov bildirdi ki, bu gün yaradılan möhkəm baza, müasirlik bundan sonra da Azərbaycanın inkişafına xidmət edəcək. Bu uğurlarımızla hər birimiz qürur duymalı, Prezidentin həyata keçirdiyi siyasətin mahiyyətini dərindən dərk etməli, onun həyata keçirilməsinə öz töhfəmizi verməliyik: "Bu siyasətə qara yaxmaq istəyən insanlara layiqli cavab verməliyik. Çünki Azərbaycanın bu uğurlarını görüb bundan məyus olan insanlar da vardır. Bu mənada hər birimizin vəzifəsi ondan ibarət olmalıdır ki, bu inkişafı, əzəməti hər birimiz qiymətləndirək, onu qoruyaq, daha da möhkəmlənməsi üçün səylər göstərək, ən əsası Prezident İlham Əliyevin ətrafında sıx birləşək. Azərbaycan əhalisinin böyük əksəriyyəti gənclərdir. Ölkəmizin gələcəyi gənclərlə bağlıdır. Gənclərimiz dövlətimizin başçısının həyata keçirdiyi siyasətin reallaşmasına öz töhfələrini versinlər, Azərbaycanın layiqli vətəndaşları olsunlar, yaxşı təhsil alsınlar və heç vaxt unutmasınlar ki, Azərbaycanın bu inkişafa Heydər Əliyevin xidmətləri, onun müəyyənləşdirdiyi siyasət nəticəsində nail olub. Heydər Əliyev yolu Azərbaycana yalnız və yalnız uğurlar gətirib."

YAP Sədrinin müavini gəncləri Heydər Əliyev irsini dərindən mənimsəməyə, Prezidentimiz İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırdı.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# Rövnəq Abdullayev BANM kollektivinə təbrik məktubu göndərib



**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev Bakı Ali Neft Məktəbinin (BANM) məzun təréni münasibətilə ali məktəbin kollektivinə təbrik məktubu göndərib.**

**SOCAR-dan verilən məlumata görə, təbrik məktubunda deyilir:**

*"Hörmətli mərasim iştirakçıları!*

*Bu gözəl gündə hamınızı salamlayır, məzunlarımızı, onların valideynlərini və Bakı Ali Neft Məktəbinin kollektivini, professor-müəllim heyətini səmimi qəlbdən təbrik edirəm. Təhsilini uğurla başa vurub məzun olmaq hər bir tələbənin həyatında ən mühüm hadisədir, yeni mərhələnin başlanğıcıdır. Bu günü tələbələr kimi, onların valideynləri və müəllimləri də intizarla gözləyiblər. Bu gün onların da sevinci yerə-göyə sığmır. Övladlarının və yetirmələrinin məzun günündə mən onlara gözaydınlığı verir, məzunlarımıza üz tutub deyirəm: Əziz gənclər, qoy bu gün atıldığınız müstəqil həyat yolunda uğur daim sizin yol yoldaşınız, yardımçınız olsun.*

*Yaxşı yadımdadır, 2011-ci ildə Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev cənabları qarşımıza yüksək texnoloji biliklərə sahib olan, ingilisdilli neftçi mütəxəssislər hazırlayacaq müasir təhsil standartlarına cavab verən yeni bir ali məktəb yaratmaq vəzifəsi qoydu. Bu məsələ o dövrdə SOCAR üçün olduqca aktual idi. Çünki əvvəlki dövrdə respublikamızda gənclər arasında humanitar fənlər populyarlaşmış, iqtisadi inkişafın dayağı olan texniki elmlərə maraq isə nisbətən zəifləmişdi və bu da yüksək ixtisaslı gənc neftçi kadrların hazırlanmasına maneə yaradırdı. Orta məktəb şagirdləri ilə məqsədyönlü işlər aparılır, müvafiq tədbirlər görülürdü. Lakin doğrusunu deyim ki, həmin maneənin aradan qaldırılması beynəlxalq səviyyəli tədris proqramı əsaslanan bu ali məktəbin fəaliyyətə başlaması ilə gerçəkləşdi. Bakı Ali Neft Məktəbində yaradılan şərait, xaricdən müəllimlərin dəvət olunması, beynəlxalq əlaqələrin gücləndirilməsi, tələbələr qarşısında geniş perspektivlər açılması gənclər arasında mühəndislik, texnologiya və təbiət elmlərinə yenidən böyük maraq oyatdı. Neft Məktəbi tədricən respublikamızın ən yüksək reytinqli ali məktəbinə çevrildi.*

*Çəkilən zəhmətin bəhrələrini görmək bizi sevindirir. Sevinirik ki, neftçilər ölkəmizdə təhsil standartlarının yüksəlməsinə ilbəil öz töhfələrini verirlər. Bakı Ali Neft Məktəbində əsl elmi axtarış mühiti, müəllimlərlə tələbələr arasında səmimi ustad-şagird münasibətləri, nəzəri biliklərin praktikada tətbiqi üçün əlverişli imkanlar yaradılmışdır.*

*Təhsilin yüksək keyfiyyəti, yeni, müasir tədris proqramlarına uyğun təşkili bu gün qəbul imtahanlarında ən yuxarı bal toplayan abituriyenləri məhz Bakı Ali Neft Məktəbini seçməyə həvəsləndirir. Ötən il birinci qrup üzrə 700 bal toplamış gənclərin hamısı BANM-i seçmişdir. Bu, yüksək nəticədir. Ölkəmizin ən parlaq zehinləri burada təhsil alır. Bu gün bakalavr pilləsindən 110, magistr pilləsindən isə 13 nəfər məzun neftçilər ailəsinin sıralarına qoşulur. Onlar uzaq ölkələrdə deyil, Bakıda, öz ailələrinin, valideynlərinin yanında beynəlxalq səviyyəli mühəndis təhsili almışlar. Amma eyni zamanda, bu məzunların bir çoxu Bakı Ali Neft Məktəbinin diplomu ilə bərabər, həm də nüfuzlu Heriot-Vatt Universitetinin diplomunu alırlar.*

*Çox fərəhli haldır ki, Bakı Ali Neft Məktəbini bitirən gənclər üçün iş axtarmaq problemi yoxdur. Məktəbin bundan əvvəlki iki buraxılışının məzunları hamısı bir nəfər kimi müxtəlif aparıcı şirkətlərdən və SOCAR-ın istehsal strukturlarından təkliflər almışlar. Onlar hazırda BP, "Halliburton", "Schlumberger", "Maire Tecnimont" kimi xarici şirkətlərdə, SOCAR-ın Türkiyədəki müəssisələrində, eləcə də Azərbaycanda - "Azneft" və "Azərikimya" İstehsalat birliklərində, Kompleks Qazma İşləri Trestində, "SOCAR Karbamid", "SOCAR Polymer" zavodlarında, SOCAR KBR və başqa birgə müəssisələrdə uğurla çalışırlar. Mən hər dəfə Türkiyədə olarkən orada çalışan məzunlarımızın əmək fəaliyyəti ilə maraqlanır, onların uğurlarına ürəkdolusu sevinirəm. Müsbət haldır ki, builki məzunların da əksəriyyəti hələ diplom almamış artıq müxtəlif şirkətlərdən iş təklifləri alıblar.*

***Əziz məzunlar!***

*Bakı Ali Neft Məktəbinin məzunu olmaq təkcə sizin üçün, valideynləriniz üçün deyil, çoxminli SOCAR ailəsi üçün də əlamətdar hadisədir. Azərbaycan dövlətçiliyinin memarı, qalibiyyətli enerji strategiyamızın banisi, ulu öndər Heydər Əliyevin məşhur sözlərini hamınız yaxşı xatırlayırsınız: "Neft Azərbaycan xalqının ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəslə məxsusdur". Neft gəlirlərinin məqsəd yox, vasitə olduğunu söyləyərək, milli sərvətimizin insan kapitalına transformasiya edilməsi konsepsiyasını irəli sürən möhtərəm Prezidentimiz İlham Əliyev Ümummilli Liderin bu fikrini qısa müddətdə gerçəkliyə çevirdi. Azərbaycanın davamlı inkişafı, müasirləşməsi, güclənməsi, şəhər və kəndlərimizin abadlaşması, əhalinin rifah halının durmadan yaxşılaşması - bütün bunlar "qara qızıl"ı insan kapitalına çevirmək ideyasının nəticələridir. Zamanın çağırışlarına operativ cavab verə bilən müasir dünyagörüşlü gənc nəslin yetişdirilməsi, müvafiq təhsil proqramlarının icra olunması bu konsepsiyanın prioritet istiqamətlərindən birini təşkil edir. İnsan kapitalının əsas mənbəyi yüksək təhsildir. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə indiyədək minlərlə azərbaycanlı gəncin xaricdə, dünyanın aparıcı universitetlərində təhsili maliyyələşdirilmişdir. Onlar yüksək səviyyəli mütəxəssis kimi yetişərək, hazırda ölkə iqtisadiyyatının müxtəlif sahələrində uğurla çalışırlar. Dövlətimizin müdrik rəhbərinin tapşırığına əsasən, SOCAR-da neft sənayesi üçün müasir biliklərə yiyələnmiş peşəkar kadrların hazırlanması istiqamətində müxtəlif layihə və proqramlar icra edilir. İndiyə qədər 300-ə yaxın gənc şirkətimizin Xarici Təqaüd Proqramına, 2000 nəfərdən artıq tələbə isə açıq müsabiqədə qalib gələrək, Daxili Təqaüd Proqramına cəlb edilmişdir. Daxili və xarici təqaüd proqramlarının qalibləri daim diqqət mərkəzindədir. Onlara müsabiqədənkənar işlə, gənc mütəxəssis statusunda növbədənkənar evlə təmin olunmaq imkanı yaradılır. Hazırda şirkətimizin Xarici Təqaüd Proqramına cəlb olunmuş gənclərdən 276, Daxili Təqaüd Proqramının iştirakçılarından 212 nəfəri SOCAR-da məsul vəzifələrdə uğurla fəaliyyət göstərir.*

*Bu gün ölkəmizdə gənclər üçün sosial liftlər sürətlə işləyir. Bu, xalqımızın daha işıqlı gələcəyinə əminlik yaradan misilsiz nailiyyətdir və onun təməlində xalqımızın ümummilli lideri Heydər Əliyevin uğurlu gənclər siyasəti dayanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları qarşıya gənc nəslin ictimai fəallığını artırmaq, onun enerji və potensialından daha effektiv istifadə etmək, gəncləri cəmiyyətimizin aparıcı qüvvəsinə çevirmək kimi vəzifələr qoymuşdur. Bunun üçün dövlətimiz üzərinə düşən hər şeyi edir. Sizin də hər birinizdən təşəbbüskarlıq, öz peşəsini sevmək və həvəslə çalışmaq tələb olunur. Gənclik - insan ömrünün qurub yaratmaq eşqi ilə çağlayan dövrüdür.*

*Sizin şansınız gətirib ki, gəncliyiniz müstəqil Azərbaycanın misilsiz iqtisadi yüksəliş dövrünə təsadüf edir. Bu gün bizim ölkəmizdə yaşamaq, oxumaq, işləmək, uğur qazanmaq üçün gənclərə bütün imkanlar yaradılıb. Azərbaycan dövlətinin başçısı, gənclərin ən yaxın dostu möhtərəm Prezidentimiz deyir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclərimiz də müstəqil Azərbaycan naminə var güclərini səfərbər etməli, Vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını əməli işləri ilə doğrultmalıdırlar.*

*Fürsətdən istifadə edərək, bu gözəl mərasimin iştirakçıları adından gənclərin inkişafı üçün respublikamızda yaradılmış böyük imkanlara görə cənab Prezidentə sonsuz minnətdarlığımızı bildirmək istəyirəm.*

***Əziz məzunlar!***

*Bu gün siz həyatınızın dönüş nöqtəsinə, müstəqil həyata qədəm qoyursunuz. Kiminiz təhsilini davam etdirəcək, kiminiz istehsalatda çalışacaqsınız. Amma əminəm ki, Bakı Ali Neft Məktəbində əldə etdiyiniz biliklər, müxtəlif istehsalat sahələrində təcrübə zamanı qazandığınız əmək vərdişləri, mənimsədiyiniz mənəvi dəyərlər gələcək fəaliyyətinizdə sizə güc və qüvvə verəcək, cəmiyyətimizin layiqli üzvləri kimi yaşayıb yaratmağınız üçün etibarlı təməl olacaqdır.*

*Şanlı tarixə malik Azərbaycan neft-qaz sənayesinin sabahkı liderlərinin sizin aranızda olduğuna inanıram. Dövlətimiz sizlərə böyük etimad bəsləyir və sizdən Vətənimizin daha işıqlı gələcəyi naminə yüksək əzmkarlıq gözləyir. Bu ali məktəb sizə biliklər verdi, müxtəlif bacarıqlar aşıladı, həyatda doğru yolu göstərdi. Siz artıq seçəcəyiniz sahələrdə uğur qazanmaq üçün çox etibarlı intellektual bazaya maliksiniz. Siz elə bu gündən neft sənayesində işləyə bilərsiniz. Yəqin ki, aldığınız iş təkliflərinə uyğun iş yerləri ilə də anlaşmısınız. Lakin bir şeyi daim yadda saxlayın ki, bu günə qədər olduğu kimi, bundan sonra da gələcək nailiyyətləriniz öz əlinizdədir. Bilin ki, yalnız səylə çalışmaq, təşəbbüskar olmaqla uğur qazanıb hədəflərinizə çata bilərsiniz.*

*Xəyallarınızın gerçəkləşməsi üçün inamlı olun, öz gücünüzə güvənin, ətrafınızdakıların qayğısına qalın. Zəhmətkeş olun, inanın ki, zəhmətinizin bəhrəsini mütləq görəcəksiniz. Uğur özü gəlib sizi tapacaq. Mən buna əminəm və sizə böyük uğurlar arzulayıram.*

*Bir daha hamınızı ürəkdən təbrik edirəm, sizə xoşbəxt, firavan həyat arzu edirəm.*

*Diqqətinizə görə təşəkkür edirəm".*






# Bakı Ali Neft Məktəbində "Məzun Günü"










**İyulun 4-də Bakı Ali Neft Məktəbinin (BANM) növbəti "Məzun Günü" keçirildi. Üçüncü dəfə keçirilən "Məzun Günü"ndə SOCAR rəhbərliyinin nümayəndələri, BANM-in rektoru Elmar Qasımov, BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, ali məktəbin professor-müəllim heyəti, ölkəmizdə fəaliyyət göstərən digər ali məktəblərin rektorları, transmilli şirkətlərin rəhbər və təmsilçiləri, Böyük Britaniyanın Heriot-Vatt Universitetinin nümayəndələri, məzunlar, onların valideynləri və qonaqlar iştirak edirdilər.**

Tədbiri giriş sözü ilə açan BANM-in rektoru Elmar Qasımov məzunları və onların yaxınlarını əlamətdar gün münasibətilə təbrik edərək, məzunlara gələcək karyera və həyatlarında uğurlar arzuladı: "Azərbaycanın ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında yüksək bal toplayaraq Bakı Ali Neft Məktəbinin tələbəsi adını qazanmış, ölkəmizin intellektual gəncliyinin Bakı Ali Neft Məktəbindən məzun olmaları bizim üçün qürurverici və mühüm hadisədir. Bakı Ali Neft Məktəbində təhsil aldıqları müddətdə daim nizam-intizamları ilə seçilmiş, təhsil həyatlarında böyük uğurlar qazanmış məzunlarımız bu gün bakalavriat və magistratura təhsili dövrünü tamamlayır, eyni zamanda, həyatda növbəti karyera və təhsil addımlarının təməlini qoyurlar. Bütün məzunlarımıza müvəffəqiyyətlər, gələcək karyera və həyatlarında uğurlar arzulayıram." Rektor Elmar Qasımov qeyd etdi ki, bu gün BANM məzunları SOCAR, "Star", "Petkim", BP, "Halliburton", "Schumberger", "Maire Tecnimont" və s. kimi nüfuzlu müəssisələrdə çalışır.

Həmçinin vurğulandı ki, BANM-in builki məzunlarının artıq 80%-i yerli və transmilli şirkətlərə işə qəbul olunub, eləcə də beynəlxalq universitetlərdə tam təqaüdlə təhsil alıblar.

SOCAR-ın Kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov SOCAR-ın prezidenti Rövnəq Abdullayevin məzunlara təbrikini çatdıraraq vurğuladı ki, 2011-ci ildə ölkə Prezidenti cənab İlham Əliyev SOCAR-ın qarşısında yüksək texnoloji biliklərə sahib olan, ingilisdilli neftçi mütəxəssislər hazırlayacaq və müasir təhsil standartlarına cavab verən yeni bir ali məktəb yaratmaq vəzifəsi qoydu: "Bu məsələ o dövrdə SOCAR üçün olduqca aktual idi. Orta məktəb şagirdləri ilə görülmüş məqsədyönlü işlər və xüsusilə Bakı Ali Neft Məktəbinin fəaliyyətə başlaması vəziyyəti tamamilə dəyişdi. Təhsilin yüksək keyfiyyəti, yeni, müasir tədris proqramlarına uyğun təşkili qəbul imtahanlarında ən yuxarı bal toplayan abituriyentləri məhz bu ali məktəbi seçməyə həvəsləndirir. Ötən il birinci qrup üzrə 700 bal toplamış gənclərin hamısı BANM-i seçmişdir. Bu, çox yüksək nəticədir."

BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz isə BANM-in nəinki Azərbaycan, eləcə də region üçün peşəkar mütəxəssislər yetişdirdiyini qeyd etdi. O, BP-də çalışan BANM məzunlarının peşəkarlığından razılığını ifadə etdi.

Tədbirdə Heriot Watt universitetinin müəllimlərinin, eləcə də BANM-in ötənilki məzunlarının dünyanın müxtəlif universitetlərindən və transmilli şirkətlərdən builki məzunlara göndərdiyi təbrik videosu nümayiş olundu.

"Məzun Günü" diplomların təqdim olunma mərasimi ilə davam etdirildi. 2018/2019-cu tədris ilində ali məktəbin "Neft-qaz mühəndisliyi" (46 nəfər), "Kimya mühəndisliyi" (48 nəfər), "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" (16 nəfər) ixtisasları üzrə ümumilikdə 110 bakalavr məzunu BANM-in diplomlarını alıblar. Onlardan 40 nəfəri, eyni zamanda Heriot Vatt Universitetinin diplomunu əldə edib.

Qeyd edək ki, bu il BANM ilk magistr buraxılışı həyata keçirib. 13 nəfər magistr məzunlarının hər biri Bakı Ali Neft Məktəbi ilə yanaşı, Heriot Vatt Universitetinin də diplomuna yiyələnib.

Sonra tədbirdə 2018/2019-cu tədris ilində ali məktəbi fərqlənmə ilə bitirən 6 tələbənin diplomu təqdim edildi.

2019-cu il məzun buraxılışında Ali Məktəb üzrə birinci olan Rəmziyyə Qarazadənin adı simvolik kötüyə həkk olundu.

Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasının tələbəsi Əmiraslan Baxşılı məzun dostları adından çıxış edərək onların gənc mütəxəssis kimi yetişmələrində, bilik və bacarıqlarının artırılmasında böyük əməyi olan müəllimlərə minnətdarlıqlarını bildirdi.

Valideynlər adından çıxış edən məzun Eltun İbrahimovun anası Natella İbrahimova yaradılan şəraitə görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkür etdi: "Biz Ağdam rayonundan məcburi köçkün düşmüşük. Çətinliklərə baxmayaraq, oğlum Eltun İbrahimov 700 bal toplayaraq Bakı Ali Neft Məktəbinə daxil olub. Prezident təqaüdü ilə təhsilini uğurla başa vuran oğlum hazırda Köln Universitetində Almaniya hökumətinin təqaüdü ilə təhsilini davam etdirir və sevindirici haldır ki, eyni zamanda da SOCAR-dan iş təklifi alıb."














"Məzun Günü"nün bədii hissəsində İnformasiya təhlükəsizliyi ixtisasının 1-ci kurs tələbəsi Xəyal Fərzəliyev Məmməd Arazın "Atamın kitabı" poemasından nümunələr, Kimya mühəndisliyi ixtisasının 2019-cu il məzunu Tofiq Şəkinski Yirumanın "River flows in you" kompozisiyasını, eyni zamanda, şotland qonaq İnes Moir valanka alətində şotland milli musiqisini ifa etdilər. Bədii hissə Çingiz Mustafayevin rəhbərlik etdiyi "Palmas" qrupunun konserti ilə davam etdi.

"Məzun Günü"nün sonunda mantiya geyinmiş məzunların ənənəvi "papaqatma" mərasimi keçirildi.

**Orxan Vahidoğlu,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# KİV rəhbərləri Rusiya Xarici İşlər Nazirliyində

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı davam edir. Nümayəndə heyəti səfər çərçivəsində Rusiyanın dövlət qurumları, jurnalist təşkilatları və aparıcı KİV-lərin redaksiyalarında görüşlər keçirirlər.**







Nümayəndə heyətinin növbəti görüşü Rusiya Federasiyasının Xarici İşlər Nazirliyində, nazirliyin informasiya və mətbuat departamentinin rəhbəri Mariya Zaxarova ilə keçirilib. KİVDF-nin icraçı direktoru Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Görüşdə iştirak edən Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Rusiya-Azərbaycan media qurumlarının sıx təmaslarının qurulmasının hər iki ölkənin maraqlarına xidmət etdiyini, Azərbaycan media təmsilçilərinin Moskvaya səfərlərinin bu baxımdan mühüm əhəmiyyət daşıdığını bildirib.

Mariya Zaxarova Azərbaycan KİV rəhbərlərinin Moskvaya səfərini və keçirdikləri görüşləri yüksək qiymətləndirib. Hər iki ölkədə KİV-lə bağlı maraq doğuran məqamların müzakirə edilib effektiv nəticə əldə edilməsi üçün canlı təmasların qurulmasını vacib sayıb. Görüş qarşılıqlı fikir mübadiləsi şəraitində davam edib.

Nümayəndə heyətinin üzvləri Rusiya Jurnalistlər Birliyinin sədri Vladimir Solovyovla da görüşüblər. Görüşdə iki ölkənin KİV qurumlarının və jurnalist təşkilatlarının təmaslarının gücləndirilməsi üçün təkliflər müzakirə edilib.

Daha bir görüş "Komsomolskaya pravda" qəzetində keçirilib. Azərbaycan KİV təmsilçiləri qəzetin iş şəraiti ilə tanış olublar. Sonra qəzetin baş direktoru Vladimir Sunqorkinlə görüş keçirilib. Sunqorkin qonaqları salamlayaraq, Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru, KİVDF Müşahidə Şurasının sədri Həsən Həsənov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Bakinskiy Raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rəşad Nəsirov, AZƏRTAC İnformasiya Agentliyinin redaksiya müdirinin müavini Əziz Məmmədov, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov daxildir.



# Sosial siyasətin mərkəzində vətəndaş amili dayanır



Dövlət başçısı tərəfindən vətəndaşların sosial cəhətdən müdafiəsini gücləndirmək, onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edən sərəncamlar imzalanması ictimaiyyət arasında böyük əks-səda doğurub. Hamı bu sərəncamların əhəmiyyətindən söz açır. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata qaldırılması, hərbi, hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz artırılması, dövlət ümumtəhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin vahid aylıq vəzifə maaşlarının 20 faiz artırılması, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışanların aylıq vəzifə maaşlarının 40 faiz artırılması kimi önəmli addımları nəzərdə tutur. Respublikamızda ilk dəfə olaraq, bir il ərzində minimum əməkhaqqı və ümumən maaşlar məhz indi bu dərəcədə artırılıb.

Xatırladaq ki, cari il mart ayının 1-də Azərbaycanda minimum əməkhaqqı 180 manat oldu. O vaxt minimum əməkhaqqının məbləği 50 manat (38,5 faiz) artırılaraq, birbaşa 600 minədək vətəndaşımızı əhatə etmişdi. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım olmuşdu. Bu mühüm addım, bütün digər məziyyətləri ilə yanaşı, əmək münasibətlərinin leqallaşdırılması istiqamətində də sağlamlaşdırıcı təsirlərə də malikdir. Yeni sosial paket ümumilikdə 2 milyondan çox insanı əhatə etməklə ümumxalq xarakteri daşımaqdadır. Yəni, dövlət büdcəsində formalaşmış əlavə gəlirlərin bilavasitə vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasına yönəldilməsi dövlət-vətəndaş, vətəndaş-dövlət etimadını daha da qüvvətləndirməklə, mövcud sosial siyasətdə alternativlərin ən yaxşısı olduğunu sübut edir.

Bir sözlə, 2019-cu ilin əvvəlində sosial sahədə atılan addımlardan və ölkə başçısının imzaladığı yeni sosial paket bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamlılığını, uğurlu sosial dövlət modelini göstərir. Yeni sosial paket əhalinin rifahına ciddi dəstək tədbirlərinin uğurla davam etməsinə, nəticədə respublikamızda ümumi rifah halının daha da yüksəldilməsi baxımından irəliləyişlərə də imkan yaradacaq.

Cari il ərzində artıq ikinci dəfə imzalanmış sosialyönümlü qərarlar, iqtisadiyyatda baş verən bir sıra mənfi tendensiyaların respublikamızın əhalisinin sosial təminatına neqativ təsirlərini mümkün olan ən aşağı səviyyədə saxlamağa imkan verir, üstəlik, vətəndaşlarımızın gəlirlərinin artmasına şərait yaradır. Bütün hallarda məntiq, mahiyyət eynidir: dövlət xalq üçün çalışır, dövlət başçısı xalqını düşünür, onun rifahının yüksəldilməsi üçün nə mümkündürsə, edir. Yeni sərəncamlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını sübut edir.

**Sevinc Azadi,**
***"İki sahil"***

## Əlilliyi olan şəxslər üçün 10 yeni peşə-sosial reabilitasiya mərkəzi yaradılacaq



Prezident İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" bu il iyunun 1-də verdiyi Sərəncam əlilliyi olan şəxslərin peşə-sosial reabilitasiya imkanlarının artırılması sahəsində də mühüm addımların atılmasına şərait yaradıb. Sərəncamın icrası çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişləri üzrə əlilliyi olan şəxslər üçün 10 yeni peşə-sosial reabilitasiya mərkəzinin yaradılması nəzərdə tutulur.

Nazirliyin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, mərkəzlərdə həmin kateqoriyadan olan vətəndaşların peşə-əmək reabilitasiyası, onların yeni peşə bacarıqlarına yiyələnmələri, özünüməşğulluğunun, əmək bazarına çıxışının dəstəklənməsi, habelə cəmiyyətə fəal inteqrasiya imkanlarına malik olmalarına şərait yaradılması istiqamətində işlər aparılacaq.

Hazırda nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzi fəaliyyət göstərir. Müasir tələblərə uyğun şəraitin yaradıldığı Mərkəzdə müxtəlif peşələrlə yanaşı, tətbiqi sənət növləri üzrə kurslar da fəaliyyət göstərir. Burada gənclərin sosial reabilitasiyasına, onlarda özünə, öz bacarığına güclü inam hissinin formalaşmasına, yaradıcılıq nümunələrinin cəmiyyətə tanıdılmasına yönəlik ardıcıl işlər aparılır.

# Aztəminatlı ailələrə qayğı

## YENİ AZƏRBAYCAN PARTİYASI YENİ AKSİYAYA START VERDİ





### YASAMAL RAYONU

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca məqsədlərindən biri vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi və əhalinin sosial müdafiəsinin təmin edilməsidir. Son bir neçə ildə iqtisadiyyatın inkişafında əldə edilən nailiyyətlər bu məqsədin uğurla reallaşmasına şərait yaradıb. Bütün kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Xüsusilə də ölkə iqtisadiyyatında həyata keçirilən köklü islahatlar bu sferada dinamik və davamlı inkişafı təmin etməklə bərabər, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına geniş imkanlar açıb.

Eyni zamanda, öz fəaliyyətində bu siyasəti rəhbər tutan Yeni Azərbaycan Partiyası da daim sosial prinsiplərdən çıxış edərək müxtəlif aksiyalar həyata keçirir, ölkəmizdə belə tədbirlərin geniş vüsət almasına öz töhfəsini verir.

Bu cür sosial tədbirlər çərçivəsində ötən gün Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə keçirilən "Aztəminatlı ailələrə qayğı" aksiyasında partiyanın Yasamal rayon təşkilatının Gənclər Birliyi bir qrup kimsəsiz, əlil şəxslər və aztəminatlı ailələrlə yaşadıqları yerlərdə görüşlər keçirib, onlara zəruri ərzaq və digər məhsullardan ibarət yardım edib.

Yasamal rayonunu əhatə edən aksiyada Xalidə Bağırova, Gülzar Əzizova, Arzu Pirimova, Bəyim Zahidova, Məmməd Sadıqov və digərləri, onların ailə üzvləri ilə görüşlərdə Yeni Azərbaycan Partiyası tərəfindən bu cür tədbirlərin bundan sonra da davam etdiriləcəyi bildirilib. Vurğulanıb ki, öz fəaliyyətində sosial istiqaməti prioritet qəbul edən YAP sosial-iqtisadi inkişafa yönəlik müxtəlif layihələr həyata keçirir. Belə fəaliyyətlərdən biri də xüsusi qayğıya ehtiyacı olan şəxslər, o cümlədən kimsəsiz, əlil və aztəminatlı ailələrin daim diqqətdə saxlanılması, onların qarşılaşdıqları problemlərin həllidir.

Görüşlərdə o da qeyd edilib ki, həyata keçirilən bu cür layihələr vətəndaşların sosial rifahının yüksəldilməsinə, qayğı ilə əhatə olunmalarına töhfə verməklə yanaşı, onlara xoş əhval-ruhiyyə yaşatmaq məqsədi daşıyır.





### XƏZƏR RAYONU

YAP Gənclər Birliyinin təşəbbüsü ilə reallaşdırılan "Aztəminatlı ailələrə qayğı" aksiyasına YAP Xəzər rayon təşkilatı və Gənclər Birliyinin üzvləri də qoşularaq rayon ərazisində yaşayan imkansız ailələrə və bir qrup əlilə yardım məqsədi ilə xeyriyyə tədbiri keçirdi.

Xeyriyyə tədbirində YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov çıxış edərək bildirdi ki, bu gün Azərbaycan gəncliyi partiyanın Proqram və Nizamnaməsindən irəli gələn vəzifələri şərəfli işi ilə doğruldur, bu adı ləyaqətlə daşıyır. Dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı partiyada təmsil olunan gənclərimiz fəallıqlarını artırır, Vətənə layiqli xidmətləri ilə fərqlənirlər. Xəzər rayonunda yaşayan gənclərin partiyanın rayon təşkilatında çoxluq təşkil etməsi YAP-a ümumxalq inamının nəticəsidir. Gənclərimiz cəmiyyətimizin aparıcı qüvvəsi kimi ictimai işlərdə də fəallıq göstərirlər. Ərazi və əhali baxımından çox böyük olmasa da, ölkəmizin qüdrətli dövlət kimi dünya birliyində tanınmasında xüsusi rolu və xidmətləri olan gənclərimiz minlərlədir.

Milli Məclisin deputatı Rauf Əliyev aksiyada iştirak edən gənclərə göstərdikləri xidmətə görə təşəkkürünü bildirərək qeyd etdi ki, gənclər fəallıqları ilə üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, Azərbaycanın uğurlarına qısqanclıqla baxan mənfur niyyətli qüvvələrə siyasi hazırlıqları, elmdə, iqtisadiyyatda qazandıqları nailiyyətlərlə cavab verməlidirlər.

Aksiyada iştirak edən YAP Xəzər rayon təşkilatı Gənclər Birliyinin üzvləri və digər fəallar tərtib olunmuş siyahı üzrə aztəminatlı ailələrə baş çəkərək onların problemləri ilə yaxından tanış oldular.

YAP Xəzər rayon təşkilatı Gənclər Birliyinin sədri Sadiq Əliyev bildirdi ki, ölkənin ictimai-siyasi həyatında aparıcı rola malik olan Yeni Azərbaycan Partiyası tərəfindən mütəmadi olaraq əlamətdar günlərdə aztəminatlı ailələrə sovqatlar paylanılır, bayram süfrələri açılır, sosial yardıma ehtiyacı olan şəxslərlə bağlı müxtəlif layihələr reallaşdırılır. Partiyanın ənənəsinə sadiq qalmaq biz gənclərin borcudur. Hər il olduğu kimi, bu il də YAP Xəzər rayon təşkilatının Gənclər Birliyi dövlətin aztəminatlı ailələr üzrə həyata keçirdiyi sosial siyasətə öz töhfəsini verməklə, rayon ərazisində yaşayan imkansız ailələrlə görüşməyi qərara aldı, qayğıya ehtiyacı olan şəxslərə dəstək göstərdi.

Həyata keçirilən bu cür layihələr vətəndaşların sosial rifahının yüksəldilməsinə töhfə verməklə yanaşı, onların qayğı ilə əhatələnməsi, əlamətdar günlərdə aztəminatlı ailələrə bayram əhval-ruhiyyəsi yaşatmaq məqsədi daşıyır.



### PİRALLAHI RAYONU

Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatı Gənclər Birliyinin üzvləri Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə həyata keçirilən "Aztəminatlı ailələrə qayğı" aksiyasına qoşularaq rayon ərazisində yaşayan imkansız ailələrə sovqat paylayıblar. Aksiyada iştirak edən YAP Pirallahı rayon təşkilatı Gənclər Birliyinin sədri Rüfət Əhmədov, sədrin müavini Elturan Həşimov və partiyanın digər fəalları tərtib olunmuş siyahı üzrə aztəminatlı ailələrə baş çəkərək onların problemləri ilə yaxından tanış olublar.

YAP Pirallahı rayon təşkilatı Gənclər Birliyinin sədri Rüfət Əhmədov bildirib ki, ölkənin ictimai-siyasi həyatında aparıcı rola malik olan Yeni Azərbaycan Partiyası tərəfindən mütəmadi olaraq əlamətdar günlərdə aztəminatlı ailələrə sovqatlar paylanılır, bayram süfrələri açılır, sosial yardıma ehtiyacı olan şəxslərlə bağlı müxtəlif layihələr reallaşdırılır. Partiyanın ənənəsinə sadiq qalmaq biz gənclərin borcudur. Hər il olduğu kimi, bu il də YAP Pirallahı rayon təşkilatının Gənclər Birliyi dövlətin aztəminatlı ailələr üzrə həyata keçirdiyi sosial siyasətə öz töhfəsini verməklə, rayon ərazisində yaşayan imkansız ailələrlə görüşməyi qərara aldı, qayğıya ehtiyacı olan şəxslərə dəstək göstərdi.

Həyata keçirilən bu cür layihələr vətəndaşların sosial rifahının yüksəldilməsinə töhfə verməklə yanaşı, onların qayğı ilə əhatələnməsi, əlamətdar günlərdə aztəminatlı ailələrə bayram əhval-ruhiyyəsi yaşatmaq məqsədi daşıyır.

### XƏTAİ RAYONU

Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyinin təşkilatçılığı ilə "İmkansız ailələrə qayğı" adlı növbəti xeyriyyəçilik aksiyasına start verildi. İki gün davam edəcək aksiyanın keçirilməsində məqsəd imkansız ailələrə yardım etməkdən ibarətdir.

Sözügedən aksiya çərçivəsində YAP Xətai rayon təşkilatının gənc üzvləri rayon ərazisində yaşayan 10 imkansız ailənin ünvanına gedərək onlara ərzaq məhsulları payladılar. Gənclər, həmçinin yaşlı ailələrin evlərində səliqə-sahman yaradaraq onlara sevinc bəxş etdilər.





Yardım alan imkansız ailələrin üzvləri ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıqdan tam razılıqlarını ifadə etdilər. Onlar yaradılan bu gözəl şəraitə görə cənab Prezident İlham Əliyevə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, Yeni Azərbaycan Partiyasının rəhbərliyi tərəfindən onlara daimi olaraq diqqət və qayğı göstərilir, sosial-məişət məsələləri öz həllini tapır.

YAP Xətai rayon təşkilatının aparat rəhbəri Mayıl Kərimov qəzetimizə açıqlamasında bildirdi ki, Azərbaycan dövləti sosial layihələri uğurla həyata keçirir: "YAP Xətai rayon təşkilatı da bu siyasətə dəstək olaraq sosialyönümlü fəaliyyətini daha geniş şəkildə davam etdirir. Əsas məqsədimiz aparıcı partiya olaraq insanlara diqqət və qayğı ilə yanaşmaqdır. "İmkansız ailələrə qayğı" adlı xeyriyyəçilik aksiyası çərçivəsində kimin daha çox ehtiyacı varsa, onlara kömək etməyi nəzərdə tutmuşuq. Partiyamızın gəncləri bu xeyriyyəçilik aksiyasında yüksək fəallıqla iştirak edirlər. Azərbaycan dövləti hər zaman aztəminatlı ailələrə qayğı ilə yanaşır. Bu, bizim ənənəvi xarakter alan tədbirlərimizdəndir. Bu təşəbbüs cəmiyyət tərəfindən dəstəklənir, müdafiə olunur. Xalqımız cənab Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kursu və həyata keçirilən islahatları birmənalı olaraq dəstəkləyirlər".

**Şəmsiyyə Əliqızı,**
**Orxan Vahidoğlu,**
**Ceyhun Piriyev,**
**Cavid Əkbərov,**
***"İki sahil"***

*Lüksemburqun nümayəndəsi:*

## Azərbaycan mədəni və təbii irsin qorunması sahəsində ən yaxşı təcrübələri bir araya gətirir



Azərbaycan ümumdünya mədəni və təbii irsin qorunması sahəsində ən yaxşı təcrübələri bir araya gətirərək bu işə mühüm töhfələr verir.

Bu fikri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən Lüksemburqun UNESKO üzrə Milli Komissiyasının baş katibi Katerin Deker söyləyib.

Qonaq qeyd edib ki, UNESKO-nun bu tədbiri ümumbəşəri dəyərə malik tarixi və mədəni abidələrin Dünya İrs Siyahısına salınması üçün müzakirələr aparmaq baxımından əhəmiyyətlidir. 2500-dən çox nümayəndənin iştirakı və tədbirin yüksək səviyyədə təşkili Azərbaycanın bu işə töhfəsini göstərir.

Azərbaycanın zəngin tarixə və mədəniyyətə malik olduğunu söyləyən qonaq burada olmaqdan məmnunluğunu ifadə edib: "Burada olduğum müddətdə Yanardağ qoruğu, Xalça Muzeyi, Atəşgah məbədində oldum. Ölkənizin qədim tarixə malik olması barədə məlumatlı olsam da, bu irsin milli səviyyədə mühafizə edilməsinə xüsusi diqqəti gördüm".

## IDEA-nın "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyət abadlaşdırılıb





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində iyulun 4-də növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Nəsimi rayonundakı Hüseyn Seyidzadə küçəsi 20, 22, 24, 26, 28 ünvanında 1200 nəfər sakinin yaşadığı binaları əhatə edir. Bu, sakinlərin istifadəsinə verilmiş layihə çərçivəsində abadlaşdırılan sayca iyirmi altıncı həyətdir.



"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması və sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə ərazidə mini futbol meydançası, 2 şahmat meydançası, 3 söhbətgah, müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş idman qurğuları, uşaqlar üçün oyun meydançası və oturacaqlar quraşdırılıb, ümumilikdə 3 həyəti birləşdirən bir park yaradılıb.

İdman qurğuları və meydançalarının salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürməsi, asudə vaxtlarını səmərəli keçirməsi, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 5 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

"Bizim həyət" layihəsinin paytaxtın bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətlər haqqında məlumat və tövsiyələri IDEA İctimai Birliyinə təqdim etmək lazımdır.

*Stefan Şennak:*

# AŞPA Azərbaycan ilə əməkdaşlığın möhkəmlənməsində maraqlıdır



İyulun 4-də Milli Məclisdə təmsil olunan siyasi partiyaların rəhbərləri AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, görüşdə Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə, Vəhdət Partiyasının sədri Tahir Kərimli, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev iştirak ediblər.

YAP icra katibinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov qonaqları salamlayaraq bu cür görüşlərin fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətli olduğunu söyləyib. Qeyd edilib ki, Azərbaycan AŞPA ilə əlaqələrə böyük önəm verir və gələcəkdə əməkdaşlığı daha da genişləndirmək niyyətindədir. Deputatlarımız təşkilatın keçirdiyi müxtəlif tədbirlərdə fəal iştirak edir, qurum çərçivəsində müzakirəyə çıxarılan məsələlərə obyektiv münasibət bildirirlər.

Görüşdə siyasi partiyaların rəhbərləri ölkənin ictimai-siyasi həyatındakı fəaliyyətləri barədə məlumat verib, qanun yaradıcılığı prosesində fəal iştirak etdiklərini söyləyiblər.

Deputatlar Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərini bildiriblər.

AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak səfər çərçivəsində keçirdiyi görüşlərdən və apardıqları danışıqlardan bəhs edib. Bildirilib ki, AŞPA Azərbaycanda gedən demokratik prosesləri diqqətlə izləyir və ölkəmizlə əməkdaşlığın möhkəmlənməsində maraqlıdır.

Söhbət zamanı Azərbaycan və Avropa Şurası arasında münasibətlər, monitorinq prosesinin gedişi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə deputat, Yeni Azərbaycan Partiyasının üzvü Rauf Əliyev də iştirak edib.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU İLƏ AZƏRBAYCAN KARBAMİDİ İLK DƏFƏ TÜRKİYƏYƏ ÇATDIRILIB

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Container" MMC SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi ilə birgə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu vasitəsilə Azərbaycan karbamidinin konteynerlərdə Türkiyəyə ilk nəqlini həyata keçirib.

Şirkətdən bildirilib ki, konteynerlərdə nəql edilən ilk partiyanın alıcısı "BGN" şirkətidir.

Nəql "SOCAR Karbamid" zavodunda palletlərdəki karbamid dolu kisələrin konteynerlərə yüklənməsi yolu ilə həyata keçirilib. Yüklənmiş konteynerlər Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Türkiyəyə göndərilib.

*İrena Vaisvilayte:*

# İnanıram ki, hər bir nümayəndə Bakı sessiyasından öz ölkəsinə xoş təəssüratlarla qayıdacaq

**Azərbaycanın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına sədrlik etməsi UNESKO-nun ölkənizə olan inamının, diqqətinin göstəricisidir. Tədbir, həmçinin ölkənizin mədəni irs abidələrinin Dünya İrs Siyahısına salınması üçün gözəl bir fürsətdir. Belə tədbirlər Azərbaycanın nailiyyətlərini təşviq etmək baxımından da yaxşı vasitədir. İnanıram ki, bu tədbirdən sonra hər bir nümayəndə öz ölkəsinə xoş təəssüratlarla qayıdacaq. Tədbirin iştirakçıları ölkənizin təkcə neft və qaza deyil, həmçinin zəngin tarixi irsə sahib olduğunun şahidi olurlar.**



Bu fikirləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən Litvanın UNESKO-dakı daimi nümayəndəliyinin rəhbəri İrena Vaisvilayte deyib.

Litva ilə Azərbaycan arasında sıx dostluq və əməkdaşlıq münasibətlərinin olduğunu söyləyən qonaq belə bir mötəbər tədbirin təşkilinə görə Azərbaycan hökumətinə, xüsusilə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib. O, 25 il əvvəl Azərbaycanda olduğunu və ötən müddət ərzində ölkənin çox dəyişdiyini və inkişaf etdiyini vurğulayıb: "Paytaxt Bakının simvolu olan Qız qalası, şəhərə xüsusi yaraşıq verən "Alov qüllələri" və İçərişəhərdə oldum. Sevindirici haldır ki, dövlətiniz tarixi mədəni irsi qorumaqla yanaşı, yeni memarlıq nümunələrinin inşasına da xüsusi diqqət ayırır. Bir tarixçi kimi deyə bilərəm ki, Azərbaycan qədim tarixə və zəngin mədəniyyətə malik ölkədir. Bilirəm ki, Azərbaycan müsəlman Şərqində Avropadan çox-çox əvvəl qadınların səsvermə hüququnu tanıyan ilk demokratik dövlət olub".

Qonaq bu günlərdə sessiya çərçivəsində Azərbaycan Xalça Muzeyində təşkil edilən tədbirdə iştirak etdiyini və xalqımızın qədim xalçaçılıq sənətinin onda böyük maraq doğurduğunu söyləyib.

# “Unudulmaz görüşlər”

## TALEYİMİZİN KİTABI




**Bu günlərdə Xalq yazıçısı Anarın “Unudulmaz görüşlər” (“Elm və təhsil” nəşriyyatı, 2019) kitabını oxudum. Yeniyetməlik çağlarımda böyük şairlərimiz Rəsul Rza və Nigar Rəfibəylinin ömür yolundan bəhs edən “Sizsiz” xatirə-romanını, bir neçə il bundan öncə sevgisi qəlbimdə əbədi yaşayan Nazim Hikmət haqqında yazdığı “Kərəm kimi” romanını necə böyük həyəcanla, qürur, kədər, sevinc, nisgil qarışıq bir hisslərlə oxumuşdumsa, “Unudulmaz görüşlər” də yaddaşımda belə unudulmaz təəssüratlar buraxdı.**

İndi bu sətirləri yazarkən xəyalım ötən əsrin 80-ci illərinə qayıdır. Anarın “Dünya bir pəncərədir” kitabını kəndimizdəki kitab mağazasından almışdım və o kitab o gündən ta bu günə qədər (30 ildən artıq bir dövr ərzində) mənim ən çox sevdiyim kitablardan olub. Məhz həmin kitabı oxuyandan sonra içimdə yazıçı olmaq istəyi yarandı. Xatırlayıram, anam mənə bahalı qələm, bloknot, atamsa yazı makinası almışdı. Onda cəmi-cümlətanı 14 yaşım vardı... “Beşmərtəbəli evin altıncı mərtəbəsi” romanı haqqında təəssüratlarımı ümumi dəftərə yazmışdım. Əlbəttə, bu yazı orta məktəb şagirdinin həvəskar qeydlərindən başqa bir şey deyildi. Amma o yazı mənimçün son dərəcə qiymətli bir xatirədir və bu gün də həmin dəftəri arxivimdə qoruyub saxlayıram.

“Unudulmaz görüşlər” kitabını oxuyanda da eyni hissləri yaşadım, duyğulandım. Anarın yaradıcılıq bioqrafiyasına nəzər salanda görürük ki, o, daim millətimizin taleyində müstəsna rolu olmuş böyük şəxsiyyətlərin obrazını yaradıb. Dədə Qorqud, Mirzə Cəlil, Üzeyir bəy Hacıbəyli, Hüseyn Cavid, Mirzə Fətəli Axundzadə... Nəsimi haqqında “Şairin hünəri”, Şah İsmayıl Xətai haqqında “Şairin zəfəri”, Füzuli haqqında “Şairin kədəri” esselərini yazıb ki, bu esselər ədəbiyyatşünaslığımızın dönə-dönə müraciət etdiyi fundamental mətnlərdir.

Anar stilistikasının məhrəmliyi, portret yaratmaq ustalığı, ilk baxışda çox yaxşı tanıdığımız şəxsiyyətin görünməyən tərəflərini yazıçı ustalığı, iti müşahidə qabiliyyəti ilə qələmə alması bu kitaba - “Unudulmaz görüşlər”ə müstəsnalıq qazandırır. Bu kitab Azərbaycan dövlətçiliyinin qurucusu, ulu öndərimiz Heydər Əliyevə həsr olunub. Bizim mənsub olduğumuz nəsil son dərəcə mürəkkəb, ziddiyyətli bir dövrün şahidi oldu. Gözlərimizin önündə nəhəng bir imperiya çökdü və bu çöküşdən əvvəl müttəfiq respublikalarda münaqişə ocaqları çatıldı, insanlar yurdyuvasından didərgin düşdü, Qanlı yanvar faciəsi yaşandı. Ondan əvvəl Almatıda, Tbilisidə sovet qoşunları dinc insanları qanına qəltan eləmişdi. Qarabağ torpağı qəsbkar ermənilər tərəfindən işğal olundu. Bakı siyasi təlatümlər burulğanında çabalayırdı. Ölkə parçalanmaq təhlükəsi qarşısında idi. Bizim gəncliyimiz bu burulğanlar içində keçdi. Və nəhayət, xalq öz liderini seçdi. Xalqı bu fəlakətlərdən xilas edəcək yeganə şəxsiyyət Heydər Əliyev idi. Onun qayıdışı ilə Azərbaycan öz tarixinin yeni mərhələsinə qədəm qoydu. Bugünkü müstəqil Azərbaycan Heydər Əliyevin sərt, qətiyyətli, yorulmaz fəaliyyəti nəticəsində yenidən quruldu, inkişaf etdi, dövlətçiliyin əsasları, azərbaycançılıq ideologiyası yaradıldı.

Bütün bunlar haqqında çox deyilib, çox yazılıb. Anar müəllim isə bu dahi şəxsiyyətlə mütəmadi ünsiyyətdə olub, onu müxtəlif situasiyalarda müşahidə edib, onun Azərbaycan ədəbiyyatına, özünə və digər yazıçılarımıza diqqət və qayğısının canlı şahidi olub. Kitabda bütün bunlar öz əksini tapıb. Anar Heydər Əliyevin hakimiyyətinin birinci dövründə də (1969-1982), ikinci dövründə də (1993-2003), çətinliklərlə dolu Naxçıvan dövründə də (1990-1992) qısa zaman fasilələriylə onunla ünsiyyətdə olmuş, onunla uzun-uzadı söhbətlər etmiş, fikir mübadiləsi aparmışdı. Görkəmli yazıçı Ulu Öndərlə məhrəm söhbətləri zamanı onun ali insani keyfiyyətlərini nəzərdən qaçırmamışdı, Azərbaycan ədəbiyyatı, mədəniyyəti üçün son dərəcə faydalı olan bu söhbətləri gələcək üçün isti-isti gündəliyinə qeyd etmişdi. Tarix həm də yazıçıların qələmində yazılır. “Unudulmaz görüşlər” ilginc faktlarla zəngindir.

Anar müəllim hələ gənc yaşlarından öz əsərləri ilə Azərbaycan ədəbiyyatında böyük nüfuz qazanmışdı. 1980-ci ildə “Şəhərin yay günləri” pyesinə görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdü. Yeri gəlmişkən, bu pyesi də haqsız hücumlardan qoruyan məhz Heydər Əliyev olmuşdu. Eyni zamanda böyük şairlərimiz Rəsul Rzanı, Bəxtiyar Vahabzadəni təhlükələrdən qorumuş, onlara layiq olduğu dəyəri vermişdi. Belə faktların sayı-hesabı yoxdur. O, ədəbiyyatımızın himayədarı idi. 1981-ci ildə İmran Qasımov vəfat edəndən sonra Yazıçılar Birliyinə yeni sədr seçilməsi məsələsi müzakirə olunanda Heydər Əliyevin məsləhətləşdiyi şəxslərdən biri də Anar idi. Bu inam və etibarı Anar öz yaradıcılığı və sağlam, vicdanlı ədəbi mövqeyi ilə qazanmışdı. Qurultayqabağı Heydər Əliyevin onunla və bir neçə yazıçı ilə söhbətləri haqda kitabda təfsilatı ilə yazılıb. Yazıçıların Şüvəlandakı Yaradıcılıq Evində, Şuşada Vaqifin məqbərəsinin açılışında Ulu Öndərin yazıçılarla son dərəcə səmimi ortamda söhbətləri, şux zarafatları da bu kitabda öz əksini tapıb. Əlbəttə, bu görüşlər ədəbiyyatımızın inkişafına stimul verirdi, yazıçılarda ruh yüksəkliyi, motivasiya yaradırdı, yeni əsərlərin yaranmasına səbəb olurdu. Mütəmadi olaraq yazıçıların qayğıları ilə maraqlanırdı, işinin çoxluğuna baxmayaraq vaxt tapıb ədəbi qəzet və jurnalları diqqətlə izləyirdi. Əksər yazıçılarımızın yaradıcılığına bələd idi. 90-cı illərdə “Azərbaycan”, “Ulduz” jurnalları, “Ədəbiyyat qəzeti” uzun fasilələrlə nəşr olunurdu. Bu nəşrlərin mütəmadi çap olunması üçün də köməyini əsirgəmədi, bu ədəbi orqanları dövlət büdcəsinə saldırdı. “Unudulmaz görüşlər” kitabı bu faktlarla zəngindir.

Bir maraqlı məqam. Anar yazır:

“...1995-ci il avqustun axırlarında “Manas” dastanının 1000 illik yubileyinə Bişkekə getdik. Burada da təntənəli iclasda Heydər Əliyev əsl filoloq kimi “Manas”ın ədəbi və tarixi əhəmiyyətindən, türk xalqlarının ortaq bədii dəyərlərindən danışdı. Yubileyə Türkiyənin və türkdilli dövlətlərin başçıları gəlmişdi. Onların zirvə toplantısına prezidentimiz məni və Yusif Səmədoğlunu da dəvət etmişdi. Hamısından məntiqli və müdrik Heydər Əliyevin danışdığını müşahidə edəndə qürur duyurduq”. (səh.159)

Məhz həmin görüşdə Dədə Qorqudun 1300 illik yubileyinin keçirilməsi ideyası yaranır. Ulu Öndər Anara deyir ki, Bakıya gələndə bu barədə təkliflərini yaz.

“Bakıda Xarici İşlər naziri Həsən Həsənovun və mənim imzalarımızla Dədə Qorqud yubileyi haqqında təkliflərimizi yazdıq”. Beləcə, Dədə Qorqudun 1300 illik yubileyinin keçirilməsi təsdiqləndi. Bundan sonrakı prosesi yazmağa ehtiyac yoxdur. Bu fakt YUNESKO tərəfindən də qəbul edildi və yubiley yüksək səviyyədə qeyd edildi. Bütün bu faktlar Heydər Əliyevin öz xalqına, xalqın tarixinə, mədəniyyətinə, onun mənəvi dəyərlərinə nə qədər ürəkdən bağlı olduğunun parlaq təzahürüdür.

Kitaba “Memuar ədəbiyyatının dəyərli örnəyi” adlı “Ön söz” yazmış AYB katibi Rəşad Məcid çox haqlı olaraq qeyd edir ki, “...Heydər Əliyevin mədəniyyət və incəsənətlə, ədəbiyyatla bağlılığı qətiyyən onun rəsmi fəaliyyəti, tutduğu siyasi vəzifə və ictimai mövqe ilə məhdudlaşmırdı. Bu münasibətin mənbəyinin ruhi bağlılıq, mənəvi tələbat və yüksək zövq olduğu saysız tutarlı faktlarla təsdiqlənib. Biz bu görkəmli dövlət adamının müasirləri kimi dəfələrlə görmüş və əmin olmuşuq ki, sənətə, ədəbi prosesə diqqət ayırmaq Heydər Əliyev üçün işdən daha çox, həyat tərzi, gündəlik yaşamın əhəmiyyətli bir hissəsidir”. (“Unudulmaz görüşlər”. səh.7)

Bu ilin iyul ayında Ulu Öndərimizin hakimiyyətə gəlişinin 50 ili tamam olur. “Unudulmaz görüşlər” kitabı həm də bu əlamətdar günə dəyərli bir töhfədir. Mən onun ölkəyə rəhbərlik etdiyi dövrdə dünyaya gəlmişəm, hərbi xidmət zamanı onun əsgəri olmuşam, onun sərəncamı ilə Ordudan tərxis edilmişəm. “İki sahil” qəzetində çalışarkən onun keçirdiyi müşavirələrdə, konfranslarda iştirak etmişəm. Azərbaycan onun rəhbərliyi altında qüdrətli bir dövlətə çevrildi. Bizim nəsil bu baxımdan xoşbəxtdir ki, bu şərəfli tarixi dönəmə şahidlik etdi. Anarın “Unudulmaz görüşlər” kitabı, həmçinin bu nöqteyi-nəzərdən mənim üçün misilsizdir. Bu kitab həm də bizim taleyimizin kitabıdır.

**Kənan Hacı,**
Yazıçı, Azərbaycan Yazıçılar Birliyinin üzvü

*Leyla Abdullayeva:*

## Ermənistanın Bakı sessiyasında iştirak üçün əlavə təhlükəsizlik zəmanəti tələb etməsi cəhdlərində məqsəd tədbirdən yayınmaqdır



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva UNESKO-nun Bakıda keçirilən Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında bəzi iştirakçılara Azərbaycan tərəfindən təhlükəsizlik zəmanətinin təmin edilməməsinə dair KİV-in sualını cavablandırıb.

Leyla Abdullayeva hazırkı sessiyanın təşkil edilməsi ərəfəsində ev sahibi qismində Azərbaycan və UNESKO arasında müvafiq saziş imzalandığını bildirib. O deyib ki, qeyd olunan sazişdə hər hansı istisna olmadan tədbirin bütün iştirakçılarının təhlükəsizlik zəmanəti ilə təmin edilməsi də daxil olmaqla, müvafiq təşkilati məsələlər öz əskini tapıb. Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək niyyətində olan və Azərbaycan tərəfindən müvafiq təhlükəsizlik zəmanətini əldə edən UNESKO-nun bütün iştirakçı dövlətləri tədbirdə iştiraklarını təmin ediblər.

Ermənistan tərəfinin öz nümayəndələri üçün əlavə təhlükəsizlik zəmanəti tələb etməsi cəhdlərinə gəldikdə isə bu, Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil edilən növbəti beynəlxalq tədbirdə iştirakdan yayınmaq məqsədilə bu ölkənin siyasi qərarından başqa bir şey deyil. Əgər Ermənistan XİN-i hələ də Ümumdünya İrs Komitəsinin sessiyasının keçirilməsinin texniki qayda və prosedurları barədə məlumatlı deyilsə, o zaman onların bu kimi tədbirlərin bütün iştirakçılarına ümumi və universal zəmanətlərin verildiyi və ölkələrə ayrılıqda xüsusi qeyd-şərtlərin tətbiq edilmədiyini öyrənmək məqsədilə UNESKO Katibliyinə müraciət etmələri yaxşı olardı.

## SALYANDA ƏHALİNİN SU TƏCHİZATI YAXŞILAŞDIRILIR





“Azərsu” Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq bölgələrdə içməli su təchizatı və kanalizasiya layihələrinin icrasını davam etdirir. Salyan şəhərində əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə su şəbəkəsinin tikintisi üzrə işlərin böyük hissəsi yerinə yetirilib.

Salyan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla 35 min nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

Layihəyə əsasən, Salyan şəhərində əhalini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək üçün su mənbəyi Şirvan-Muğan qrup su kəməri seçilib. Şirvan-Muğan qrup su kəmərindən şəhərə 9 km magistral su xətti çəkilib. 2016-cı ildə Prezident İlham Əliyevin iştirakı ilə Salyan şəhərinə içməli suyun verilməsi mərasimi keçirilib. Şəhərin dayanıqlı su təchizatı məqsədilə tutumu 7500 kubmetr olan su anbarı tikilib. Bununla da şəhərə özüaxımlı rejimdə içməli suyun verilməsi təmin edilib və istismar tələblərinə cavab verməyən sutəmizləyici qurğunun, həmçinin 3 ədəd nasos stansiyasının fəaliyyəti dayandırılıb. Bundan sonra mərhələlərlə şəhərin daxili şəbəkələrinin yenidən qurulmasına başlanılıb və hazırda bu sahədə işlər yekunlaşmaq üzrədir.

2019-cu ilin dövlət investisiya proqramı çərçivəsində Salyan şəhərində 25 km su xəttinin tikintisi nəzərdə tutulub. Artıq Babacanlı yaşayış massivində 14 km su xəttinin inşası başa çatdırılıb. Yaxın vaxtlarda isə şəhərin mərkəzi hissəsində 11 km su xətti çəkiləcək. Növbəti mərhələdə şəhərin yeni salınmış yaşayış massivində də içməli su layihəsi icra olunacaq.

Ümumilikdə Salyan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində şəhərdə 131 km içməli su və 123 km kanalizasiya şəbəkələrinin yaradılması nəzərdə tutulub. İndiyədək Babacanlı yaşayış massivi və şəhərin mərkəzi hissəsi daxil olmaqla 83 km su şəbəkəsi yaradılıb. Su təchizatı ilə yanaşı, kanalizasiya sistemində də müəyyən işlər görülüb. Ötən müddətdə şəhərin mərkəzi hissəsində 5 km kanalizasiya şəbəkəsi tikilib, mövcud kanalizasiya nasos stansiyası bərpa edilib və 4,7 km uzunluğunda təzyiqli kanalizasiya xətti yenisi ilə əvəz olunub. Salyan şəhərində yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə gələcəkdə məhsuldarlığı sutkada 10 min kubmetr layihələndirilən tullantı sutəmizləyici qurğusu inşa ediləcəkdir.

Qeyd edək ki, yeni layihənin icrasına qədər Salyan şəhərində 1950-70-ci illərdə yaradılmış içməli su təchizatı və kanalizasiya sistemlərindən istifadə olunurdu. Şəhərə içməli su 1972-ci ildə inşa olunmuş sutəmizləyici qurğudan verilirdi. Burada mövcud olmuş 70 km içməli su şəbəkəsi şəhəri tam əhatə etmirdi. Eyni zamanda, sutəmizləyici qurğunun və şəhərdaxili şəbəkənin istismara yararsız vəziyyətə düşməsi səbəbindən əhalinin içməli su ilə təminatında ciddi çətinliklər yaranırdı.

**Orxan Vahidoğlu,**
*“İki sahil”*

# Bəşəri dəyərləri qorumaq beynəlxalq ictimaiyyətin vacib öhdəliyidir

## BAKIDA KEÇİRİLƏN UNESKO-nun ÜMUMDÜNYA İRS KOMİTƏSİNİN 43-cü SESSİYASININ İŞTİRAKÇILARI BÜTÜN XALQLARI EYNİ MƏQSƏD NAMİNƏ HƏMRƏYLİYƏ SƏSLƏDİLƏR

**BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan UNESKO-nun Azərbaycanla əməkdaşlığı bəşəri dəyərlərə verdiyi töhfələri ilə diqqəti cəlb edir. Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də mədəniyyətlərarası dialoqun genişləndirilməsində xüsusi rolu olan ölkəmizin UNESKO ilə hərtərəfli səmərəli əməkdaşlığı çox yüksək səviyyədədir.**

Bu əməkdaşlığın inkişafında xüsusi əməyi olan, ölkədə, dünya miqyasında mədəniyyət, təhsil, xeyriyyəçilik, idman və digər sahələrdə maraqlı layihələrin müəllifi, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın istər Azərbaycan, istərsə də dünya mədəni irsinin qorunması, təbliği və inkişafı istiqamətində gördüyü işlər bu əməkdaşlığın coğrafiyasını genişləndirir. Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə UNESKO-nun xoşməramlı səfiri adına layiq görülən Mehriban xanım Əliyevanın mədəniyyətə göstərdiyi qayğı ilə əlaqədar fəaliyyətinin böyük bir hissəsi 2004-cü ildə əsası qoyulan Heydər Əliyev Fondu ilə bağlıdır. Fond mütəmadi olaraq Azərbaycan mədəniyyətini, qeyri-maddi mədəni irsini tanıtmağa yönələn layihələr həyata keçirir. Fondun dəstəyi ilə ənənəvi olaraq keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı Şərq və Qərb musiqisini, eləcə də məşhur ifaçıları, bəstəkarları bir araya gətirir. Festivala gələn çoxsaylı xarici qonaqlar dünya musiqisinin ən möhtəşəm nümunələrini dinləməklə yanaşı, Azərbaycan musiqisinin gözəl inciləri ilə də tanış olur, xalqımızın mədəniyyəti barədə aydın təsəvvür əldə edirlər. Fondun bir sıra dövlət qurumları ilə birgə təşkil etdiyi respublika muğam müsabiqələri və Beynəlxalq Muğam Festivalı Azərbaycanda muğam sənətinə üz tutan gənclərin sayını xeyli artırıb, milli muğamımızı dünyaya tanıdıb. "Eurovision-2012" " mahnı müsabiqəsinin Bakıda ən yüksək səviyyədə təşkil edilməsində də müsabiqənin Təşkilat Komitəsinin sədri Mehriban xanımın xidmətləri müasir musiqi mədəniyyətimizin və müsabiqənin tarixinə parlaq səhifə kimi daxil olub.

"Qızıl Ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatına layiq görülən Mehriban xanımın "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun Yaqut Xaç ordeninə, "XXI əsrin böyük qadını" laureatı adına, UNESKO-nun "Qızıl Motsart" medalına, Krans Montana Forumunun qızıl medalına layiq görülməsi illərdən bəri çəkilən zəhmətə beynəlxalq səviyyədə verilən dəyərdir. Ölkə daxilində və dünya arenasında həyata keçirdiyi layihələrin əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı "Heydər Əliyev mükafatı" ilə təltif edərkən bildirmişdir ki, Fondun bütün təşəbbüsləri milli ruha əsaslanır: "Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycanın olduğu kimi dünyaya təqdim edilməsi- bütün bu şərəfli funksiyalar bu Fondun üzərinə düşür."



Fransanın "Şərəf Legionu" ordeninə layiq görülən, xeyriyyəçilik işlərində fərqlənən, bəşəriyyətin ali ideyalarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə beynəlxalq səviyyəli sorğularda daha çox reytinq toplayan Mehriban xanım Azərbaycan qadınlarının simvoludur.

Ölkəmizdə keçirilən Dialoq və forumlar göstərir ki, Şərq ilə Qərb arasında körpü olan Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin çox qədim və möhkəm kökləri vardır. Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında "Roma katakombalarının bərpasına dair ikitərəfli Saziş"in imzalanması, Vatikanda Müqəddəs Marçellinio və Pietro katakombalarının təmiri ilə bağlı layihələrin reallaşması Azərbaycanın dünya mədəni irsinə verdiyi töhfələrdəndir. Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda təşkil olunan konfransın, Bakıda "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusundakı beynəlxalq Forumun, Heydər Əliyev Fondunun dəstəyi ilə "Gənclər sivilizasiyaların alyansı naminə" təşəbbüsü çərçivəsində keçirilmiş beynəlxalq konfransın məqsədi müasir dövrümüzdə xalqları düşündürən, narahat edən problemlərin həlli üçün səyləri birləşdirməkdir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə reallaşdırılan layihələr milli mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılmasına, gender bərabərliyinin təminatına, sivilizasiyalararası dialoqun genişləndirilməsinə, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsinə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına istiqamətlənib. Birinci vitse-prezident kimi də milli mənəvi dəyərlərimizin qorunub-təbliğində təşəbbüskarlığını davam etdirən Mehriban xanımın UNESKO ilə əməkdaşlıq çərçivəsindəki fəaliyyəti, müxtəlif ölkələrlə mədəni əlaqələrin gücləndirilməsi, sivilizasiyalararası dialoqun genişləndirilməsi mühüm nailiyyətdir. Məhz onun səmərəli fəaliyyətinin nəticəsi olaraq muğam və aşıq sənəti, tar ifaçılıq sənəti, eləcə də Azərbaycan xalçası, Novruz bayramı, kəlağayı sənəti UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilib. Bundan başqa, İçərişəhər, Qız Qalası və Şirvanşahlar saray kompleksi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin, əlamətdar hadisələrin UNESKO çərçivəsində qeyd edilməsi də qurumla əlaqələrin yüksək səviyyəsinin bariz göstəricisidir. Ermənistan tərəfindən işğal olunan ərazilərimizdə tarixi, mədəni abidələrimizin erməni silahlıları tərəfindən məhv edilməsindən narahatlığını, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün UNESKO-nun mötəbər tribunasından bacarıqla istifadə edən xoşməramlı səfir Mehriban xanım vətəndaşlıq borcunu da yerinə yetirir.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi də Mehriban xanımın xidmətlərindəndir.

Sessiyada çıxış edən Mehriban xanım Əliyevanın vurğuladığı kimi, dünyanın mədəni irsinin qorunması Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın əsas istiqamətlərindəndir. Azərbaycanda milli mənəvi dəyərlərə dövlət səviyyəsində göstərilən diqqətdən bəhs edən Mehriban xanımın vurğuladığı kimi, 2001-ci ildə dövlət tərəfindən qorunan 6600-dən artıq mədəniyyət abidəsini əhatə edən Milli-Mədəni İrs Siyahısı qəbul edilmişdir. Son 5 il ərzində Azərbaycanda 40 tarixi abidə bərpa edilmiş, Abşeron yarımadasında tapılmış tarixi abidələri və arxeoloji eksponatları özündə əks etdirən açıq səma altında "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksi" yaradılmışdar. Bakıda, Ağcabədidə və Ağdamda muğam mərkəzlərinin tikintisi, məscidlərin, sinaqoqların və kilsələrin yenidən qurulması və inşası, muzeylərin bərpası Azərbaycan dövlətinin müxtəlif xalqlara məxsus mədəni irsin qorunması və zənginləşdirilməsi sahəsində apardığı siyasətin sadəcə bir neçə elementidir.

Respublikamızda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq və Humanitar forumların təşkilində də məqsəd sivilizasiyalararası əməkdaşlığı birlik və həmrəyliyə yönəltməkdir.

Sessiyadakı çıxışında ölkəmizin humanizmə və xalqların birliyinə yönəldilmiş təşəbbüslərini yüksək dəyərləndirən UNESKO-nun Baş direktoru Odre Azule bildirmişdir ki, UNESKO multilateralizm mövqeyindən çıxış etməklə xalqları narahat edən problemlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün ən mötəbər tribunadır.

"Burada həm Birləşmiş Ştatları, Çini, İranı, Rusiyanı, Burkina-Fasonu, həm də Böyük Britaniya və bütün digər dünya dövlətlərini narahat edən məsələləri müzakirə edirik. Bu onu göstərir ki, məhz mədəni irsə gəldikdə bütün dünya ölkələri bu məsələləri birgə müzakirə edir" söyləyən Baş direktor son zamanlarda müxtəlif ölkələrdə baş verən təbii fəlakətlər nəticəsində dağıntıya məruz qalan tarixi abidələrin bərpasına müxtəlif xalqların göstərdikləri dəstəyi beynəlxalq həmrəyliyin təzahürü adlandıraraq vurğulamışdır ki, bu xeyirxahlıq, birlik millətlərin sözdə deyil, əməldə sülh istəyinin ifadəsidir. Bu istəyin məqsədi dünya mədəni irsinin müxtəlifliyinin qorunması, bütün xalqlara fayda gətirməsidir: "Bu bizim ümumi tarixdə öz izini qoyacaq. Beynəlxalq həmrəylik daha yüksək sürətlə formalaşdırılmalıdır." Mədəni və təbii irsin qorunması üçün normativ və hüquqi sənəd olan Konvensiyanın tələblərinə əməl etməklə, bu sahədə daha ciddi işləmək, yüzlərlə abidəni qorumaq və mühafizə etmək milliyyətindən asılı olmayaraq beynəlxalq ictimaiyyətin bəşəriyyət qarşısında ən vacib məsuliyyəti və öhdəliyidir.

Mehriban xanım Əliyevanın "Bu gün dünya bir dilemma qarşısındadır: ya dinlər və mədəniyyətlər arasında dialoq, tərəfdaşlıq və əməkdaşlıq qurulmasına doğru addımlamaq, yaxud da qeyri-dözümlülük, bölünmə və gərginliyə sürükləmək" sözləri UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında davam etdirilən müzakirələrin ana xəttini təşkil edir. Suriyada, İraqda, Fələstində, Liviyada, Türkiyədə, Azərbaycanda, Arakanda ... törədilən terrorlar, dini ayrı-seçkilik nəticəsində qətlə yetirilən insanlar, dağıdılan tarixi abidələr, miqrantlara qarşı göstərilən ədalətsizlik sivilizasiyamıza vurulan zərbədir. 8 aylıq fələstinli Leyla-ən Qəndurun, 3 yaşlı suriyalı Aylin Kürdinin, erməni gülləsindən həyatını itirən balaca Zəhranın vaxtsız ölümləri hər kəsi bir daha düşünməyə vadar edir.

Sessiyanın ilk günündə qəbul olunan Bakı Bəyannaməsində UNESKO-nun qarşıdakı illərdə həyata keçirəcəyi layihələrin əksini tapması göstərir ki, xalqların həmrəyliyinə, birliyinə ehtiyac aktuallığını qoruyur. Sessiya iştirakçılarının ölkəmizlə tanışlığı üçün təşkil olunan gəzintilər, tarixi yerlərə, qoruqlara ekskursiyalar, milli mənəvi dəyərlərimiz haqqında verilən ətraflı məlumatlar Azərbaycanın dünya sivilizasiyasına daha bir əyani təqdimatıdır.

✍ **Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## "Azəriqaz" rəhbərliyi vətəndaşların müraciətlərini dinləyib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, 4 iyul 2019-cu il tarixində SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Əkbər Hacıyev Lənkəran şəhərində, Birliyin baş direktorunun müavinləri Ramil İsgəndərov Astara, Ruslan Əliyev isə Masallı rayonlarında vətəndaş qəbulu keçiriblər.

Qəbulda Lənkəran, Lerik, Astara, Masallı və Yardımlı rayonlarından olan vətəndaşların müraciətlərinə baxılıb. Vətəndaşların müraciətlərinin əksəriyyəti yaşayış məntəqələrinin qazlaşdırılması, işə qəbul, qaz xətlərinin yerinin dəyişdirilməsi və müxtəlif məsələlərlə bağlı olub.

"Azəriqaz" İB-nin rəhbərliyi hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların qəbul zamanı qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Birliyin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə müvafiq orqanlara çatdırılması üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

# Azərbaycan-UNESKO əməkdaşlığı yeni mərhələdə



"Azərbaycan növbəti dəfə beynəlxalq tədbirə ev sahibliyi edir. Bir neçə gündür ki, Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirilir. İyulun 10-dək davam edəcək bu tədbirdə dünya ictimaiyyətinə sülh, əmin-amanlıq çağırışları səsləndirilir, elm, təhsil və mədəniyyət sahələrində yeni əməkdaşlıq körpüləri salınır. Bununla da Azərbaycan milli mənəvi dəyərlərinin, tarixi-mədəni irsinin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə də dəstək verir. Şübhəsiz, bu hər şeydən əvvəl qarşılıqlı inam və etimada söykənən Azərbaycan - UNESKO əməkdaşlığının daha bir nümunəsidir". **Bu sözləri Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva mövzu ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında söylədi.**

Müsahibimiz, həmçinin bildirdi ki, son illər mədəniyyətlər və sivilizasiyalararası dialoq sahəsində keçirilmiş beynəlxalq səviyyəli tədbirlərin statistikasına və coğrafiyasına diqqət yetirsək, aydın şəkildə görərik ki, bu sahədə təşəbbüslərin böyük əksəriyyəti qlobal miqyaslı tədbirlərin keçirilməsi üçün ən müasir infrastruktura malik Azərbaycan tərəfdən irəli sürülmüşdür: "Ötən müddətdə atılan əməli addımlar, irəli sürülən ideya və təşəbbüslər də bunu deməyə əsas verir. Bu mənada növbəti Bakı sessiyası dünyada mədəni irsin qorunub saxlanılması baxımından mühüm platformadır. Onu da qeyd edim ki, xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən UNESKO ilə Azərbaycanın əlaqələri öz tarixinə görə ölkəmizin BMT-yə qəbul olunduğu dövrdən də əvvəlki illərə təsadüf edir. Azərbaycanın UNESKO ilə əlaqələrinin genişləndirilməsi isə 1993-cü ildən ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra başlanmışdır. Belə ki, UNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası 1994-cü il fevralın 21-də ümummilli lider Heydər Əliyevin müvafiq Sərəncamı ilə yaradılıb. 2005-ci il sentyabrın 15-dən isə Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq, Milli Komissiya Azərbaycan Respublikasının Prezidenti yanında statusu ilə fəaliyyətini davam etdirir".

UNESKO ilə Azərbaycan arasındakı əlaqələrin 2004-cü ildə respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu qurumun xoşməramlı səfiri seçiləndən sonra daha sürətlə inkişaf etdiyini, daha məhsuldar olduğunu vurğulayan Milli Məclisin deputatı vurğuladı ki, məhz onun səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer almışdır: "Hətta mən deyərdim ki, ölkəmiz ilə UNESKO arasında əməkdaşlıq yeni eraya qədəm qoymuşdur. Belə ki, İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri UNESKO-nun Ümumdünya İrs Siyahısına, zəngin və qədim mədəniyyətimizin digər mühüm elementləri isə bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilmişdir. Halbuki 2000-ci ilədək ölkəmizin ancaq bir qeyri-maddi mədəni irsi bu təşkilatın siyahısına daxil olunmuşdu. Məlumata görə, ölkəmizdə bir neçə məkanın da UNESKO-nun Dünya İrs Siyahısına namizəd kimi irəli sürülməsi nəzərdə tutulub. Təbii ki, bu da sevindiricidir. Bir sözlə, UNESKO ilə əməkdaşlığın inkişafında və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində UNESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın müstəsna xidmətləri vardır".

Bu tədbirin də ölkəmiz üçün faydalı olacağını əminliklə qeyd edən müsahibimiz daha sonra dedi: "Sözsüz ki, UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası xalqımızın zəngin mədəni irsinin qorunması, respublikamızın mədəni və turizm imkanlarının təşviq olunması, həmçinin erməni vandalizminin ifşa edilməsi baxımından da böyük əhəmiyyət kəsb edir".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Astaralılar zəhmət meydanında



Astara rayonu da öz ətirli çayı ilə daha çox tanınır. Məhz buna görə burada çayçılığın inkişafına xüsusi əhəmiyyət verilir. "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018- 2027-ci illər üçün Dövlət Proqramı"na uyğun yeni plantasiyalar salmaq nəzərdə tutulub.

Artıq rayonda may ayında başlanan yaşıl çay yarpağının birinci yığımı başa çatmışdır. Çayçılar mövsüm ərzində plantasiyalardan bütövlükdə 197 ton 263 kiloqram yüksək keyfiyyətli məhsul əldə edə biliblər. İl boyu çəkilən zəhmətin bəhrəsi çayçıları sevindirir. Məhsulun 114 ton 737 kiloqramı 2 saylı Astara çay fabrikinə təhvil verilibdir.

Bir neçə gündür ki, astaralılar çay yığımının ikinci mərhələsinə hazırlıq işləri görürlər. Ümumiyyətlə, Astaranın kənd təsərrüfatı çoxsahəlidir. Taleyini torpağa bağlayan rayon zəhmətkeşləri taxılçılıqla da məşğul olurlar. Bu ilin məhsulundan ötrü rayonun torpaq istifadəçiləri 139.5 hektarda buğda, 44.5 hektarda arpa əkib becərmişlər. Zəmilərdə bol məhsul yetişibdir. Artıq biçin sona çatmaq üzrədir. Qazanılan nəticələr göstərir ki, əvvəlki illə müqayisədə taxıl sahələrinin məhsuldarlığı yüksələrək orta hesabla hər hektarda 21.2 sentnerə çatmışdır.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# YOLUN AÇIQ OLSUN, İRƏVAN AZƏRBAYCAN TEATRI!

*"Yəqin ki, mənə o günləri görmək nəsib olmayacaq, ancaq İrəvan Teatrının məhz öz yurdunda, öz evində, İrəvan şəhərində, dədə-baba torpaqlarımızda fəaliyyətini davam etdirməsini böyük ehtirasla görmək istəyirəm! İnanıram ki, o gün mütləq gələcək! Teatra, teatrın fədakar kollektivinə o günlərin nəsib olmasını arzulayıram!"*

**Mədəniyyət naziri Əbülfəs Qarayev**



İyun ayının 27-də peşəkar Azərbaycan teatr sənətinin fədaisi və banisi, görkəmli aktyor və rejissor Hüseyn Ərəblinskinin dövlət tərəfindən ucaldılmış qəbirüstü abidəsinin açılış mərasimində iştirakımız zamanı, mərasim bitdikdən sonra, hörmətli Mədəniyyət nazirimiz cənab Əbülfəs Qarayevlə qısa bir ara, ayaqüstü söhbətimiz oldu. Söhbətimiz İrəvan Teatrının təmir prosesinin vəziyyəti və perspektivini əhatə edirdi. Bir neçə mətləblərə toxunan nazirimiz söhbətinin sonunda böyük ruh yüksəkliyi ilə ifadə etdiyi, yuxarıda qeyd olunan fikri düşüncəmdə özünə emosional yer tutdu. Bu fikir aşağıdakı yazının ərsəyə gəlməsinə səbəb oldu.

İrəvan Teatrının tarixinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, bu sənət ocağı zamanın və dövrün ictimai-siyasi mənzərəsi fonunda o dövr ziyalı mühitinin yaratdığı tərəqqinin inkişaf selinin sürətli axını istiqamətinə qoşulmuş cəmiyyətin teatr sənətinə olan tələbləri dinamikasının təsir qüvvəsindən, beləliklə, böyük bir zərurətdən yaranmışdır. Bu sənət ocağının fədakar kollektivi bütün fəaliyyəti boyu öz sənətkarlıq qüdrətləri ilə cəfakeşlik, əzmkarlıq, mübarizlik nümayiş etdirmiş, yaratdıqları çoxjanrlı sənət əsərləri ilə cəmiyyətin həqiqi aynasına çevrilmiş, bütövlükdə keşməkeşli yoldan keçməklə, Azərbaycan teatr sənətinin yaradıcılıq salnaməsinə böyük töhfələr vermiş, öz ənənələrini yaratmış və özünəməxsus bir sənət məkanına çevrilmişdir.

İrəvan Teatrının yaradıcılıq potensialının məzmun və mahiyyətində xalqımızın sənət sərvətini yüksək miqyasda inkişaf etdirib qorumaqla yanaşı, eyni zamanda, vətəndaşlıq mövqeyindən və milli mənafedən çıxış etmək durur. Bu teatrın kollektivi bütün yaradıcılıq tarixi boyu - həm Qərbi Azərbaycandakı fəaliyyəti dövründə, həm də hazırkı deportasiya həyatındakı fəaliyyəti zamanı bütün gücü ilə qoruyub saxladığı özünəməxsus ənənələrinin tərkib hissəsindən biri olan səmimi vətənpərvərlik missiyası ilə mənsub olduğu xalqına, torpağına, millətinə, dövlətinə və dövlətçiliyinə, Azərbaycan teatr sənətinin inkişaf etdirilməsinə vicdanlı xidmət göstərməklə nümunəyə çevrilə bilmişdir. Teatr respublikadaxili və xarici ölkələrə olan hər bir səfərində, geniş yaradıcılıq imkanlarının miqyasını göstərməklə yanaşı, həm də İRƏVAN və QARABAĞ HƏQİQƏTLƏRİnin carçısı olduğunu dönə-dönə və fədakarcasına sübut edir. Teatrımızın yaradıcılıq yolunun cövhərində xalqımızın sənət sərvətini yüksək miqyasda inkişaf etdirib qorumaqla yanaşı, eyni zamanda, vətəndaşlıq mövqeyindən və milli mənafedən çıxış etmək durur.

Diqqətəlayiq məsələ budur ki, İrəvana dönmək eşqini hər zaman özündə yaşadan İrəvan Teatrı heç vaxt təkcə sənət məkanı kimi fəaliyyətini məhdudlaşdırmamışdır, həm varlığı ilə, həm də yaratdığı vətənpərvər ruhlu nəhəng tamaşalarla, torpaqlarını zəbt etmiş və onu isti yurd-yuvasından didərgin salmış düşmənə qarşı qəhrəmancasına mübarizə mövqeyində dayanmışdır. İnanıram ki, bu mövqe İrəvan Teatrı üçün hər zaman prioritet məsələ kimi aktiv qalacaqdır və kollektivimiz ölkə başçısının apardığı uğurlu siyasət sayəsində, respublikamızda gedən bugünkü parlaq inkişafın sabahımıza apardığı işıqlı yolda üzərinə düşən sahədə hər zaman öz işini aktiv fəaliyyət prinsipləri üzərində davam etdirəcəkdir.

Sağlam kollektiv yaratmaq üçün böyük əhəmiyyət daşıyan bütün bu amillər bu gün bizə imkan verir deyək ki, İrəvan Teatrı olaraq biz dövlətimizin göstərdiyi etimadı bütün sənət bacarığımız, düşüncəmiz, vətənpərvərliyimiz, vətəndaşlığımız, azərbaycançılığımız və deportasiya həyatı yaşadığımızı heç vaxt unutmamaq qüdrətimizlə var gücümüzü hər zaman qüvvədə saxlayacaq və xalqımızın xidmətində ləyaqətlə dayanacağıq.

Bu gün biz hazırkı kollektivin üzvləri də, ənənələri qoruyub saxlamaqla yanaşı, İrəvan Teatrının qazandığı bu şöhrətin daha da geniş vüsət alması və inkişaf etdirilməsi istiqamətində fəaliyyətimizi gecəli-gündüzlü, əzmlə davam etdirməyin təkcə vəzifə borcumuz olmadığını, həm də bir milli mənafe və vətəndaşlıq borcu olduğunu bütün varlığımızla dərk edirik.

Mən çox böyük ümidlə inanıram ki, qloballaşan sivil dünyada Tanrı övladları İNSAN meyarının aliliyinin mahiyyətini dərk edəcək, "didərgin" anlayışı "sülh və barış"la əvəz olunacaq, firavan yaşamaq üçün insanlarda təfəkkür sivilizasiyası canlanacaq və İrəvan Teatrı da çoxdandır pərən-pərən düşmüş, həsrətində olduğu sevimli tamaşaçıları ilə pərvəriş tapdığı doğma vətənində nəfəs-nəfəsə dayanaraq, öz sənət nümunələri ilə yenidən onların xidmətində duracaqdır.

İrəvan Teatrının kollektivi üçün bu məsələ bir məslək kriteriyası mahiyyətində qırmızı xətlə görünən coşqun bir həyəcan siqnalı kimi onun amalına çevrilmişdir.

Tarixi boyu dəfələrlə "ölüm" hökmünə məhkum olmasına baxmayaraq, İrəvan Dövlət Azərbaycan Dram Teatrı hər dəfə yaşamaq üçün bütün hökmlərə qalib gəlmiş, zəfər bayrağını heç vaxt təslim kürsüsünə təhvil verməmiş, son nəfəsinin sonuncu anından belə yeni qüvvət taparaq, böyük mübarizə qüdrəti ilə geniş meydana doğru sürətlə yürüş etmiş və yenidən əzmlə yaşamağa başlamışdır.

Bu sənət məbədi əbədiyaşarlıq haqqını Tanrıdan aldığı üçün Tanrının hökmünə tabe olmaqdan başqa heç bir qüvvəyə tabe olmur və heç vaxt da olmayacaqdır!

Düşmən tərəfindən "ölüm hökmü"nə məruz qaldığı halda, ümummilli liderimiz Heydər Əliyevin böyük qayğısı ilə yenidən yaşamaq hüququ özünə qaytarılan bu qədim sənət ocağı daim o müdrik liderin qarşısında öz məsuliyyətini və borcunu unutmur.

2007-ci ildə ölkə rəhbəri cənab İlham Əliyevin diqqət və qayğısı ilə 125 illiyi təntənəli yubiley şəklində ölkəmizdə, daha sonra yubiley tədbirinin davamı olaraq, Mədəniyyət və Turizm (indi Mədəniyyət Nazirliyi) Nazirliyinin rəhbərliyinin təşəbbüsü ilə Türkiyə Cümhuriyyətində davam etdirilməsindən sonra qədəm qoyduğu yeni mərhələ onun daha da geniş miqyasda tanınmasına və inkişaf etməsinə səbəb oldu. Repertuarında ən geniş yeri vətənpərvər ruhlu əsərlərin ərsəyə gəlməsinə ayırdı. Dövlətin qayğıları ilə tam əhatə olunan İrəvan Teatrı öz hüquqi ünvanı ilə təmin olundu. Hazırda tamamlanma işləri aparılan binada bu sənət məbədi bütün gücünü və imkanını məhz öz ideyalarına, öz dəyişməz strategiyasına həsr edəcəkdir.

Bir neçə il qabaq Azərbaycan Radiosunun "Səngər məktubları" adlı verilişinə dəvət olunmuşdum; verilişin aparıcısı Tural Quluzadənin mənə ünvanladığı ilk sual belə oldu: Səngər sizin üçün nədir? Mən bu suala belə cavab verdim: "Mənim ilk səngərim anamın bətni olub. İnsan dünyaya səngərdən doğulur..."

Bu anlamda İrəvan Teatrının səngərinin doğulduğu İrəvan Qalası olduğuna heç şübhəniz olmasın. On doqquz ildir bu teatrın həm rəhbəri, həm də kollektivin yaradıcı üzvü kimi olduğum həqiqət budur ki, bu TEATR öz sənət funksiyası ilə öz sələfləri kimi İrəvan qalasının xilas olunması üçün əlindən gələni edəcək və bu yoldan heç vaxt dönməyəcəkdir!

Hörmətli nazirimizin həyəcanla ifadə etdiyi o dəyərli fikir, o ülvi arzu İrəvan Teatrı üçün daima böyük stimula çevriləcək bir hikmət kimi, onu bu istiqamətdə var gücü ilə çalışmağa səsləyəcək, bu yolda bütün imkanlarını səfərbər etməsinə güc, qüvvət verəcəkdir!

Yolun açıq olsun, İRƏVAN AZƏRBAYCAN TEATRI!

**İFTİXAR**
Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru

# Güclü iradə, güclü sosial siyasət...

**Ölkəmizin inkişaf strategiyasına əsasən, əhalinin sosial müdafiə və sosial təminat xərclərinin, o cümlədən yoxsulluğun səviyyəsinin azaldılmasında müstəsna əhəmiyyət kəsb edən minimum əməkhaqqının, minumum pensiyaların, sosial müavinətlərin və digər sosial təyinatlı xərclərin mütəmadi olaraq artırılması qarşıya qoyulan əsas vəzifələrdir. Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.**



Prezident İlham Əliyev iyunun 18-də minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqların diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması haqqında bir sıra sərəncamlar imzalaması dövlət və özəl sektorda çalışanların gəlirlərini əhəmiyyətli dərəcədə artırması bunun əyani sübutudur.

Əmək haqlarının, əmək pensiyalarının, təqaüd və müavinətlərin artırılması bir daha sübut edir ki, dövlət siyasətinin mərkəzində insan amili dayanır. Önəmli olan məsələlərdən biri odur ki, ölkə başçısının 18 iyun 2019-cu il tarixli Sərəncamı ilə minimum əmək haqqının 250 manata çatdırılması ölkəmizdə ilk dəfə olaraq minimum əmək haqqının yaşayış minimumunu üstələməsinə imkan verib. Qeyd edək ki, dövlət başçısının 2019-cu il 8 fevral tarixli Sərəncamı ilə martın 1-dən ölkəmizdə minimum əməkhaqqı 38,4 faiz artırılaraq 180 manata və dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında qəbul olunan qanunla əmək pensiyasının minimum məbləği 38,5 faiz artırılaraq 160 manata çatdırılıb. Hər iki artım respublikamızda əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli irəliləyişə imkan verən mühüm addımlar olub.

Bundan başqa, dövlətimizin başçısının yeni qanunvericilik təşəbbüsü kimi, əmək pensiyasının minimum məbləğinin cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması ilə minimum pensiya pensiyaçılar üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələmiş olacaq. Minimum əməkhaqqının artımı 950 min insanı, dövlət sektoru üzrə müxtəlif sahələrdə əmək haqlarının artımı isə 400 min insanı əhatə edir. Bütövlükdə ölkə başçısının yeni inqilabi sosial paketi ümumilikdə 1 milyon 350 min insanın əmək haqlarının, 750 mindən çox pensiyaçının pensiyasının, nəticə etibarilə 2,1 milyon vətəndaşın əmək haqqı və pensiya formasında gəlirlərinin ciddi şəkildə artımına imkan verəcək.

Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi siyasəti ardıcıl xarakter daşıyır. Prezident İlham Əliyev bu ilin fevralında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə bu əminliyi də ifadə etmişdir ki, 2019-cu il sosial islahatlar ili kimi tarixə yazılacaq: “Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Eyni zamanda, bizim maliyyə imkanlarımız buna imkan verir. Maliyyə imkanlarımızı biz əldə etmişik, biz yaratmışıq. Məhz aparılan islahatlar nəticəsində bizim gəlirlərimiz, büdcə gəlirlərimiz artır, artacaq və artmalıdır. Ona görə bir daha demək istəyirəm ki, bizim iqtisadi inkişafımız sosial məsələlərin həlli ilə nə qədər bağlıdır. Bu da təbiidir. Bizdə güclü iradə, güclü sosial siyasət var. Eyni zamanda, elan edilmiş və icra edilən ciddi iqtisadi və sosial islahatlar bizə imkan verir ki, əlavə maliyyə resurslarını məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək. Əminəm ki, 2019-cu il bütövlükdə ölkəmiz üçün uğurlu il olacaqdır.”

**Zahid Rza,**
***“İki sahil”***

# Səyahətə necə hazırlaşmalıyıq?

**Səyahətə çıxarkən hər kəsi düşündürən məqamlardan biri də məhz səfər hazırlığı ilə bağlı olur. Çünki tətili daha rahat və arzuolunan edən məqamlardan biri də məhz həmin müddətdə bizə lazım olan bütün vəsait və ləvazimatların yanımızda olmasıdır. Bu məsələ ilə bağlı isə ölkə daxilinə nisbətən xarici səyahətlərdə daha da diqqətli olmalıyıq. Çünki xaricə səfərin özünəməxsus tələb və şərtləri olur ki, bunları nəzərə almadan orada istirahət etmək mümkün deyil.**



İlk növbədə səfərə nə götürüb-götürməməyi düşünürük. Öncəliklə bu, planladığımız səyahət proqramına uyğun gəlməlidir. Belə ki, bəziləri dəniz səyahətinə, digərləri olduqca aktiv səyahətə üstünlük verir və əlbəttə ki, çemodanımızın içindəkilər seçdiyimiz səyahət növünə uyğun gəlməlidir.

Ən əvvəl seçdiyimiz səyahətin növündən asılı olmayaraq özümüzlə götürəcəyimiz ilk əşya bizim sənədlərimizdir - xarici pasport. Onu da qeyd edək ki, pasportun nüsxəsini də götürməyiniz məsləhətdir. Daha sonra təyyarə biletləri (və ya elektron çıxarışlar) və tələb olunursa sığorta sənədini də götürməyiniz lazımdır.

İkinci diqqət etməli olduğunuz nüans maddi vəsaitdir. Bunun üçün siz ödəmə kartları ilə yanaşı nağd pul götürməlisiniz. Çünki bir çox xarici ölkələrdə ödəmə kartından istifadə zamanı problemlər yarana bilər. Xarici valyuta kimi hər iki valyutanı - avro və ABŞ dollarını özünüzlə götürə bilərsiniz.

Üçüncü, özümüzlə bərabər çantada götürdüyümüz geyimlərdir. Çünki məlumdur ki, biz Azərbaycan xanımları hətta xaricdə belə səliqəli və fərqli geyinməyi xoşlayırıq. Amma təyyarə biletində göstərilən çəkini və gedəcəyiniz ölkədə alış-veriş məkanlarının da olacağını unutmamaq və hər bir halda tədbirli davranmaq lazımdır. Geyim məsələsinə gəldikdə, əlbəttə, hər birimizin öz seçimi var. Səyahət çantamızdakı geyimlər seçdiyimiz səyahət proqramına uyğun olmalıdır. Dənizkənarı istirahət zonalarına gedənlərin fərqli geyim seçimləri, aktiv səfərə gedənlərin isə bir başqa seçimi ola bilər. Burada aktiv səyahət proqramı seçən xanımlara ilk növbədə 2 cüt rahat ayaqqabı və daha yüngül geyim götürməyi məsləhət görmək istərdik. Ən əsas isə səfərinizin aktiv olacağı, bəzi hallarda bir neçə şəhər dəyişəcəyinizi nəzərə alaraq yükünüzün çox da ağır olmaması və sizə narahatlıq yaratmamasını nəzərə almalısınız. Dəniz səyahəti seçən xanımlar bu səyahətə uyğun müvafiq geyimlər, kosmetik vasitələr, xüsusilə günəş kremləri ilə özlərini təmin etməlidirlər. Hər iki halda- istər daxili, istər xarici turizmi seçən xanımlarımıza müvafiq tibb ləvazimatları və gigiyenik vasitələrdən səfərə götürməyi tövsiyə edərdik. Bu, ilk növbədə hər şeyin əlimizin altında olması və səfər günlərimizin zərurət yarandığı halda aptek axtarışına və narahat vəziyyətlərə düşməməniz üçün gərəklidir.

Dördüncü isə, hava proqnozu haqqında məlumatlı olmaqdır. Səfər öncəsi gedəcəyiniz ölkədəki hava haqqında məlumatı internet şəbəkəsindən öyrənin. Bu halda, daha zəruri olan geyim əşyaları çemodanınızda yer almış olacaq və təbii ki, səyahət zamanı əylənmək və etmək istədiyiniz heç nəyə manea yaranmayacaq. Temperaturun dəyişikliyini nəzərə alaraq qalın və ya nazik paltar seçimi edəcək, gedə biləcəyiniz yerləri və məkanları müəyyənləşdirəcəksiniz.

Səfər üçün heç zaman son anı gözləməyin. Bir neçə gün qabaqdan rahatlıqla hazırlaşın. Səyahət müddətini uzun və uşaqla nəzərdə tutmusunuzsa, asudə vaxtlarınızda sizə lazım olacaq əşyaların siyahısını tərtib edin. Yol çamadanınıza yerləşdirdikcə qarşısından müsbət işarəsi qoyun. Bununla da hazırlıq işlərinin hansı yerdə olduğundan dəqiq məlumatınız olar.

**Yaqut Ağaşahqızı,**
***“İki sahil”***

# Uşaqlara təbiəti sevdirək



Müasir günümüzdə demək olar ki, əksər valideynlərin problemi uşaqlarının telefon, planşet və ya kompyuter oyunlarına çox vaxt ayırmalarıdır. Bunun nəticəsində isə uşaqlar sosial mühitdən uzaqlaşır, texnologiya aludəçisi olurlar ki, bu da öz növbəsində onların xəyal güclərinin yavaş-yavaş itməsinə səbəb olur. Psixoloq və pedaqoqlar bu məsələyə ciddi yanaşaraq uşaqların sosial mühitlərinin genişlənməsi, fərdi inkişaflarının stimullaşdırılması və fərd kimi formalaşmalarında açıq havada olmanın vacibliyini qeyd edirlər. Mütəxəssislər qeyd edirlər ki, valideynlər uşaqlarda ətraf mühitə, təbiətə sevgini aşılamalı və bunu onlar üçün maraqlı hala gətirəcək məşğuliyyətlər tapmalıdırlar.

Özünə inanan, insan sevgisi ilə dolu olan, xoşbəxt və müvəffəqiyyətli bir gələcəyin yolu təbiətdən keçir. Təbiət uşaqların xəyal güclərini artıracaq və onların var olan potensiallarını ortaya çıxaracaqdır. Buna görə də uşaqların mümkün olduğu qədər təbiətlə iç-içə böyüməsi valideynlər üçün xüsusi əhəmiyyət daşımalıdır. Psixoloqlar qeyd edirlər ki, uşaqları təbiətlə tanış etməli, onu sevib qoruması gərəkliyini öyrətməliyik. Aparılan araşdırmalar sübut etmişdir ki, 12 yaşına qədər təbiətdən uzaq böyüyən uşaqların böyük əksəriyyəti gələcəkdə ona qarşı laqeyd olurlar. Buna görə də azyaşlılarla birlikdə açıq havada gündəlik yürüşlər edərək, eyni zamanda onlarla xoş zaman da keçirmiş olarsınız. Bəs valideynlərin üzərinə bu barədə hansı öhdəliklər düşür?

Əvvəla, xüsusilə aktiv hərəkətdə olan uşaqları açıq havada və ya təbiətdə yürüşlərə çıxararkən göz önündən ayırmadan onların hərəkət edəcəyi istiqaməti müəyyənləşdirmək lazımdır. Bundan əlavə uşaqların geyimləri də xüsusi əhəmiyyət daşıyır. Belə ki, onlara dar şalvar və ya qısa üst geyimi əvəzinə, rahat hərəkət edə biləcəkləri geniş geyimlər və idman ayaqqabıları geyindirərək uzun yürüşlər edə bilərsiz.

Uşaqlara özləri ilə rahat daşıya biləcəkləri bel çantası hazırlayın. Onun içində özlərinin ehtiyaclarını qarşılayan əşyalar olanda, çantalarını daşımaqları onlarda artıq məsuliyyət hissinin formalaşmasına imkan yaradacaq.

Bel çantalarında mütləq su və onlar üçün evdə hazırladığınız sağlam qidalar, meyvə-tərəvəzlərin olmasına diqqət yetirilməlidir. Mümkün qədər hazır qidalardan, qazlı və şirin sulardan uzaq durmaq üçün bu vasitə xüsusilə işə yarayacaq.

Gəzintidən öncəki gecə taxıl məhsulları ilə qidalanma uşaqlar üçün faydalı ola bilər.

Uşaqlarda macəra duyğusu yeniyetməlik vaxtlarında özünü hiss etdirməyə başlayır. Erkən yaşlardan etibarən idmanla məşğul olmaq uşaqlara qazanmaq və itirməklə bağlı reaksiyaları idarə etməyi öyrədir. Onların bir mövzuda konkretləşmələrinə yardım edir və özlərinə inam hissini gücləndirir.

Məktəb çağında olan uşaqlarda dostları ilə, ətrafındakı digər uşaqlarla vaxt keçirmək istəyi artır və idmanla məşğul olmaq onlarda bu istəklərini qarşılamaqda köməkçi olur.

Uşaqların erkən yaşlarından etibarən texnologiyadan uzaqlaşıb ətraf mühitlə sıx əlaqəsinin olması onların gələcəkdə fərd kimi böyümələrində əvəzsiz rol oynayır. Təbiəti bilmək, onu hiss etmək, qorumaq insani keyfiyyətlərin formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir. Bu baxımdan uşaqları evdə oturmağa deyil, əksinə sosial həyatda aktiv olmağa meyillləndirmək gərəkdir.

**Nilufər Mustafaqızı,**
***"İki sahil"***

# Oğullar əsgər gedir



Milli Ordu sıralarına yay çağırışı başlanıb. Xoşbəxtliyimiz ondadır ki, indi gənclərimiz ordu sıralarına böyük həvəslə gedirlər. Bu da ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsidir. Bizim Vətəni, xalqını qanı bahasına qorumağı bacaran mərd, igid oğullardan ibarət güclü ordumuz vardır. Hər bir azərbaycanlı bu güclü, qüdrətli orduya ürəkdən inanır. Astara rayonunda gəncləri hərbi hissələrə yolasalma toplantısında bir daha bunun şahidi oldum. Çağırışçılara nəzər salıram. Çöhrələrdə olan təbəssüm göstərir ki, müstəqil Azərbaycana xidmət etməyi, onun keşiyində durmağı hamı özünə müqəddəs borc bilir...

Geniş meydanda qurulan tədbirdə Azərbaycan Respublikası Dövlət Himninin sədası dalğa-dalğa ətrafa yayılır. Buraya toplaşan rayon sakinləri Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən mərd Vətən övladlarının xatirəsini bir dəqiqə sükutla anırlar. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Astara rayon şöbəsinin rəisi, polkovnik Valeh Nəcəfov tədbir iştirakçılarını salamlayır və həqiqi hərbi xidmətə çağırılan gənclərə təbrik sözünü deyir. O, çağırışçı gənclərin Vətənə şərəflə xidmət edəcəyini vurğulamaqla, onlara qalib əsgər kimi doğmalarının yanına qayıtmağı arzulayır.

Başqa çıxışçılar- rayon İcra Hakimiyyətinin şöbə müdiri Mərasim Hacızadə, Aprel qazisi Orxan Əliyev, valideyn Nisəxanım Amanova və digərləri gənclərə cəsur, əzmkar olmağı, Vətənin keşiyində ləyaqətlə durmağı, komandirlərin əmrlərini can-başla yerinə yetirməyi tövsiyə edirlər.

Tədbirin bədii hissəsində şən musiqi altında qol açıb rəqs edənlər də olur. Vətənlə bir olmaq məqamı gələndə isə çağırışçı gənclər Azərbaycanın üçrəngli bayrağını öpərək ürəkdən gələn "Yaxşı yol, uğur olsun!" sədaları ilə hərbi hissələrə yola salınırlar.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Müdafiə Nazirliyi:
## CƏBHƏNİN BƏZİ SAHƏLƏRİNDƏ ATƏŞKƏS REJİMİ ARA-SIRA POZULUB

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.



# Ermənistanda səfalətin "Paşinyan mərhələsi"

**Ermənistanda acınacaqlı sosial vəziyyət artıq öz pik nöqtəsinə çatır. Erməni mətbuatında demək olar ki, hər gün Nikol Paşinyanın yarıtmaz siyasəti haqqında kəskin tənqidi yazılar dərc olunur. Ermənistandakı sosial-iqtisadi böhran və səfalət indi "Paşinyan mərhələsi"nə qədəm qoyub. İşğalçı ölkənin mətbuatında da Ermənistanda baş qaldıran yeni etiraz dalğası ilə bağlı hiddət və təşviş dolu yazılarda populist vədlərlə hakimiyyətə gələn Nikol Paşinyan hökumətindən narazılıq ifadə olunur.**

"Armenianreport" saytında yer alan yazıdakı frazaların birində yazılır: "Paşinyan insanları küçəyə çıxarmaqla, belə demək mümkünsə, cini şüşədən buraxdı. Və bu gün onun "bəhrələrini" görməkdədir. Ancaq cinin hirslənib tamamilə özündən çıxmasına çox az qalıb... "

Yazı müəllifi Ermənistanda bir-birinin ardınca bağlanan zavod və fabriklərin, istehsalat müəssisələrinin işçilərinin bir parça çörəyə möhtac qaldıqlarını, yenidən küçələrdə etiraz aksiyaları keçirdiklərini yazır: "Bu gün ixtisar olunub ailəsi çörəksiz qalan bu insanlar hələ keçən il küçələrdə Paşinyanı dəstəkləyirdilər. O vaxtkı kriminal rejimə baxmayaraq onların onda heç olmasa az maaşlı da olsa işi var idi. İndi isə o da yoxdur. Paşinyanın ağzı köpüklənə-köpüklənə meydanda xalqa verdiyi vədlərin əvəzində xalq nə əldə etdi? Daha ağır sosial durum, daha çox işsizlik, daha betər səfalət..."



Analitik Ermənistanın yeni hakimiyyətinin hələ heç bir halda ümidləri doğrultmadığını, əksinə ölkəni daha da iflasa apardığını qeyd edib: "Biz sadəcə reytinqini qoruyub saxlamağa çalışan klassik hakimiyyət ssenarisi izləyirik. Paşinyan hökumətinə hələ də ölkədəki ictimai-siyasi vəziyyəti stabilləşdirmək, Ermənistanın iqtisadiyyatını dirçəltmək və sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaq nəsib olmayıb. Hərçənd ki, onun başlıca vəzifəsi elə bu olmalı idi. 2018-ci ilin aprelində meydanlara çıxan səfil xalqın ondan gözləntisi məhz bu idi. Meydanda da Nikol Paşinyan da məhz bunları söz vermişdi"

Ermənistanın baş nazirinə qarşı ölkəsində artıq çox böyük narazı elektorat meydana gəlib. İşğalçı ölkənin mətbuatında da, küçələrində də baş nazirin "fəaliyyəti", daha doğrusu, fəaliyyətsizliyi durmadan kəskin tənqid olunur, təcili şəkildə problemlərin həlli tələb edilir.

Hələ bir neçə müddət öncə Paşinyanı öyərkən "ağzına çullu dovşan sığışmayan" "armenianreport" saytının eksperti Tevos Arşakyan indi də elə həmin cür xəyal qırıqlığı ilə hökumət rəhbərini kəskin tənqid edir: "Paşinyan hökumətinin ilk və ən böyük vədlərindən biri işsizliyin aradan qaldırılması olsa da, bu problemin öz həllini tapması üçün hazırkı hakimiyyət heç bir islahat həyata keçirmədi. Əksinə, hökumətin "islahatları" nəticəsində daha minlərlə insan işindən atılaraq Ermənistandakı işsizlər ordusuna qoşulur və qoşulmaqdadır".

Bütün bunlar o qənaətə gəlməyə əsas verir ki, Ermənistanda dəyişən sadəcə siyasi fiqurlardır, çürümüş sistemin mahiyyəti olduğu kimi qalıb.

Şərhçi ölkədəki antidemokratik mühiti, zorakılığı və səfaləti tənqid hədəfinə almaqla yanaşı, sonda Ermənistanın yeni hakimiyyətini xalqın adından təhdid etməyi unutmayıb: "Paşinyan unutmamalıdır ki, onu hakimiyyətə gətirən xalq istənilən an onu gəldiyi yerə yollamağı da bacarar...".

Ermənistandakı narazılıq dalğasına nəzər saldıqda görünən budur ki, o an çox da uzaqda deyil...

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

# Təbiətin fəryadına gecikmək olmaz

**Azərbaycanın böyük ziyalısı, akademik Həsən Əliyev "Həyəcan təbili" kitabında yazırdı ki, həyatda dərsə də gecikmək olar, bazara da... Amma təbiətin fəryadına gecikmək böyük faciələr yaradır. Bu mənada, təbiətin hər çağırışına diqqət yetirmək, yaşıllıqları qoruyub saxlamaq, hətta onun əhatə dairəsini genişləndirmək hər bir normal insanın gündəlik qayğısına çevrilməlidir.**

Əslində, dəfələrlə sübut olunub və tarixin acı nümunəsinə çevrilibdir ki, cəmiyyət qanunlarından fərqli olaraq təbiət qanunlarını pozmaq bəşəriyyət üçün çox ciddi təhlükələr törədir. Məhz bu səbəbdən də Fridrix Engels hələ iki əsr əvvəl yazırdı ki, biz təbiət üzərindəki qələbələrimizlə öyünməməliyik. Ona görə ki, təbiət hər bir qələbəmizə görə bizdən ikiqat qisas alır.

Budur, insanların təbiətdən qisas alırmış kimi istifadəsinin fəsadları özünü büruzə verir. Artıq çaylardakı, böyük dənizlərdəki bioresursların kökü kəsilmək ərəfəsindədir. Hətta "ölü dəniz" deyilən bir gerçəklik də mövcuddur. Eyni zamanda, hazırda dünya alimlərini düşündürən məsələ "qlobal istiləşmə" təhlükəsini önləməkdir. "Qlobal istiləşmə" təhlükəsi də məhz təbiət qanunlarına zidd hərəkətlərin edilməsinin acı nəticəsidir.

Ötən əsrin 70-ci illərində okeanlarda sınaqdan çıxarılan nüvə silahlarının acı nəticələri qlobal mənada özünü büruzə verir. NASA-nın proqnozlarına görə, təhlükənin qarşısı alınmazsa və gələcək illərdə Şimal Buzlu Okeanın buzları əriyərsə, bu, kainatın Nuh dövründəki subasmasının təkrarlanması ilə nəticələnə bilər.

## Ekologiyanı qorumaq üçün kamil əxlaq sahib olmaq gərəkdir

Burada bir məqama da diqqət yetirmək lazımdır ki, təbiətin ekoloji durumunu qorumaq və onu daha da yaxşılaşdırmaq üçün kamil insan əxlaqına sahib olmaq gərəkdir. Bu tendensiya insanı təbiətə qarşı rəhmli, ədalətli olmağa, ondan səmərəli istifadə etməyə sövq edir. Heç təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyev təbiətin qayğısına qalan, onu qorumağa çalışan kamil insanlardan biri və birincisi idi.

Hələ 1969-cu ildə bu böyük dövlət xadimi Sovet Azərbaycanına rəhbərlik etməyə başladığı ilk günlərdən respublikada sənayeləşmənin sürətini bir neçə dəfə artırdı. Bu, insanlarımızın yaxşı yaşaması, respublikamızın inkişaf etməsi üçün çox önəmli hadisələr idi. Ancaq elə həmin dövrlərdə yaşıllıq zonasının salınması və onun əhatə dairəsinin genişlənməsi də məhz Heydər Əliyevin xüsusi tapşırığı və qayğısı ilə reallaşmışdı.

Sənayeləşmənin ölkəyə ekoloji zərərini önləmək üçün inanılmış və təcrübədən çıxmış yaşıllaşdırma işi Ulu Öndərin Bakını abad və təmiz şəhərə çevirmək istəyinin əsasını təşkil edirdi. Məhz Bakı Məişət Kondinsionerləri Zavodunun, Bakı Neft Emalı Zavodunun və digər böyük müəssisələrin tikintisindən dərhal sonra onların ətrafında hektarlarla yaşıllıq zonaları yaradılmışdı.Yalnız həmin illərdə Bakı şəhərində təxminən 3000 hektar ərazidə yaşıllıq salınmışdı.

Ümummilli Liderin 1993- cü ildə müstəqil Azərbaycana rəhbərliyə qayıdışı yenə də Bakı şəhərinin yaşıllaşdırma işlərinə böyük təkan verdi. Məhz onun hakimiyyəti illərində yalnız Bakı şəhərində 20- dək böyük və abad parklar salındı, yaşıllıq zonalarının həcmi artırıldı. Həmin parklarda daha çox xan çinarlar əkilməyə başlandı.

Burada bir fikrimi də bildirmək istəyirəm. Hələ Azərbaycanda gedən sovetləşmə illərinin əvvələrində sanki Xan çinarların kökünü kəsmək istəyirdilər. Adı "xan" olduğu üçün onu da "kulaq" etməyə çalışırdılar. Eyni zamanda, Xan çinarın kökünün kəsilməsinə nail olmaqla tarixə ağır bir zərbə vurmaq arzusunda idilər. Çünki ömrü 1500 il olan bu ağacların özü bir tarixdir və millətin, yurdun tarixini yaşadan muzeydir, salnamədir.

Ümummilli Liderin Azərbaycanın təbii sərvətlərinə və ekologiyasına şəxsi diqqəti və qayğısı sonralar dövlət səviyyəsində daha ciddi qorunmağa başlandı. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması ekologiya sahəsində dövlət siyasətinin daha mükəmməl yürüdülməsinə şərait yaratdı. Həmin nazirliyin fəaliyyətə başlaması və onun strukturlarının formalaşması ekoloji tarazlığın yaradılması istiqamətində bir çox qlobal və lokal layihələrin sürətlə həyata keçirilməsinə imkan verdi.

## Ekologiyanın qorunmasında yeni mərhələ

Bioloq alimlər yaşıllıqları cəmiyyətin ağciyəri, oksigen bazası hesab etməkdə yanılmayıblar. Geniş yaşıllıqlar, abad və səliqəli şəhər, ekoloji intizam-bunlar hər bir mədəni millətin və inkişaf etmiş dövlətlərin həyat və əxlaq norması qədər önəmli məsələlərdir. Məhz bu səbəbdən də iqtisadi inkişafla bərabər, ölkənin ekoloji təmizliyini qoruyub saxlamaq, şəhər və qəsəbələrimizi yaşıllığa qərq etmək Prezident İlham Əliyevin siyasi fəaliyyətində də önəmli yer tutur. Xüsusən, son 10 ildə ölkə başçısının Fərmanı ilə bir neçə qoruq və milli parklar yaradılıb.

Qeyd edək ki, milli parklar xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malikdir. Bu da bir faktdır ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmadan öncə Azərbaycanda milli parklar mövcud deyildi. 2003-cü ildə ölkəmizdə Ordubad, Şirvan, Ağ göl, 2004-cü ildə Hirkan, Altıağac, 2005-ci ildə Abşeron, 2006-cı ildə Şahdağ milli parkları yaradıldı. Həmçinin Qızılağac dövlət təbiət qoruğunun ərazisi genişləndirilərək Dənizkənarı milli parkın, Göygöl dövlət qoruğunun ərazisi genişləndirildi və onlar yeni status aldılar. Eyni zamanda, Prezident İlham Əliyevin Bakı şəhərinin landşaftının yenişləşdirilməsi ilə bağlı xüsusi bir Sərəncamı da paytaxtda yaşıllıq zonalarının artırılmasına və mühafizəsinə şərait yaradıb.

Statistikaya görə, ekoloji proqramların sayına və onların uğurla icra olunmasına görə, Azərbaycan Cənubi Qafqazda birinci yerdədir. Xüsusən, Xəzər dənizinin çirklənmədən qorunması, eyni zamanda, təmiz və içməli su mənbələrinin axtarılaraq əhalinin istifadəsinə verilməsi istiqamətində son illərdə Azərbaycanda böyük layihələr həyata keçirilib. Qəbələ-Oğuz-Bakı magistral su kanalının istifadəyə verilməsi paytaxt əhalisinin ekoloji-təmiz içməli su ilə təminatını daha da yaxşılaşdırdı. Həmçinin Prezident İlham Əliyevin təşəbbüsü ilə bir çox rayonlarda xüsusi sutəmizləyici qurğular quraşdırılaraq əhalinin təmiz və içməli suya olan tələbatı ödənilməyə başlandı. Ölkəmizdə yeni meşə massivlərinin salınması, vəhşi təbiətin qorunması istiqamətində önəmli işlər həyata keçirilib.



Digər mühüm məqam Balaxanıda müasir standartlara cavab verən və ekoloji təmizliyə xidmət edən möhtəşəm zibil tullantıları emalı zavodunun istifadəyə verilməsidir. Əgər bir neçə il bundan əvvəl paytaxtın ən böyük zibil tullantısı poliqonu olan Balaxanıda tüstüdən, üfunət iyindən ətraf qəsəbələr yaşamaqda əziyyət çəkirdilərsə, bu gün artıq bu problem köklü şəkildə həllini tapıb. İndi Balaxanı zibilxanası və onun ətrafı yaşıllıqla zənginləşmiş gözoxşayan məkandır.

Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva 2016-cı ilin noyabrın 14-də Təbiətin Mühafizəsi üzrə Beynəlxalq Birliyin (IUÇN) Sidney şəhərində keçirilən Ümumdünya Parklar Konqresinin plenar sessiyasında çıxış edərək regionda nəsli kəsilməkdə olan vəhşi heyvanların mühafizəsi ilə bağlı ölkəmizdə həyata keçirilən layihələr barədə məlumat vermişdir. O, çıxışında bildiribdir ki, Azərbaycanda nəsli kəsilmək təhlükəsi altında olan əsas beş heyvan müəyyənləşdirilib və onların mühafizəsi ilə bağlı tədbirlər planı hazırlanıb.

Həmçinin SOCAR-ın xüsusi proqram-layihələrinə əsasən neftli ərazilərin qurudulması və yaşıllaşdırılması istiqamətində böyük işlər həyata keçirilib. Yüz hektarlarla ərazi indi bataqlıqdan çirkli sulardan təmizlənərək orada parklar və bağlar salınıb. SOCAR-da ekoloji proqramlar beynəlxalq standartlara uyğun şəkildə icra olunur. İndi neft və qaz istehsalında ətraf mühitin qorunması, ekoloji tarazlığın qorunması ən prioritet məsələdir.

## "Hərəyə bir ağac əkək" təşəbbüsü və yaxud niyyəti saf insanlar səhranı gülüstana çevirənlərdir

Bakı şəhərində, o cümlədən Respublikada yaşıllaşdırma, ekoloji təmizlik işlərinə ciddi töhfələr verən təşkilatlardan biri də Heydər Əliyev Fondudur. Azərbaycanın birinci vitse-prezidenti, Heydər Əliyev Fondun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın irəli sürdüyü "Hərəyə bir ağac əkək" təşəbbüsü ölkədə geniş vüsət alıb. Bu təşəbbüsə qoşulan ölkə vətəndaşlarının əməyi sayəsində hər il ölkəmizdə milyonlarla ağac əkilir.

Hərdən rayonlara gedəndə magistral yolların ətrafında salınan yaşıllıqları görəndə qürur hissi keçirirəm. Susuz düzlərdə ağac əkmək, oranı yaşıllaşdırmaq həm çətin, həm də müqəddəs işdir. Bu müqəddəs işlərlə məşğul olan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bağbanları qızmar günəş altında yaşıllıqların qorunmasına, ağac və gül kollarının böyüməsi üçün böyük zəhmət çəkirlər. Əslində yaşıllıqları qoruyanları və həm də onun miqyasını genişləndirənlərin bu dünyadakı hörmət və izzəti nə qədər böyükdürsə, o dünyada da yeri cənnət məkandır. Çünki yaşıllığı bol, havası və suyu təmiz olan yerləri gülüstan, cənnət məkan da hesab edirlər.

Məqamı gəldiyi üçün yazımın sonunda bir rəvayəti də xatırlatmaq istəyirəm. Keçmiş zamanlarda bir bağban saraydakı gülləri sulamaq üçün hər gün iki iri kuzədə su daşıyırmış. Sol əlindəki kuzənin yan tərəfində çat var imiş. Bağban hər dəfə su daşıyanda sol əlindəki kuzədən damcılayaraq cığırın sol tərəfinə tökülürmüş. Bir müddətdən sonra cığırın sol tərəfi yaşıllığa, gülə-çiçəyə qərq olur. Bunu xatırlatmaqda məqsədim odur ki, niyyəti saf insan, fiziki sağlamlığının olub-olmamasına belə rəğmən istəsə quru səhrallığı da gülüstana çevirə bilər.

Biz bu gün məhz belə nəsil yetişdirməliyik və bu, hamımızın məsuliyyət daşıdığımız bir ali vəzifədir. Axı, bəşəriyyətin taleyi hər birimizin təbiətlə necə davranmağımızdan çox asılıdır.

**Elçin Zaman,**
**"İki sahil"**

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azəriqaz" İstehsalat Birliyi

**Xüsusi geyim və fərdi mühafizə vasitələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsinin Lot 1 (29020-19) üzrə müraciət tarixinin və zərflərinin açılış tarixinin uzadılmasını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 16.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, Rus və ya İngilis dilində əldə etmək istəyənlər satınalınan mallar Lot 1 üzrə 590 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120 (AZN),
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Xaricdən və valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:
TAX İD: 9900003871
AZ08IBAZ38110019789306332120 (EURO)
Vasitəçi bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
AZ28IBAZ38110018409306332120 (USD)
Vasitəçi bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar: (lot1)***
**Müsabiqə təklifinin təminatı:**
*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*
*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
**Müqavilənin yerinə yetirilməsi təminatı:**
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 60 təqvim günü müddətində yerinə yetirilməsi tələb olunur.

***VI.***Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
**Əlaqələndirici şəxs:** Nuriyeva Aytən
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin mühəndisi
+994 12 521-00-00 (daxili 29 490)
ayten.e.nuriyeva@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 16.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə Lot 1 üzrə 11:00-da, elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İstehsalat Birliyi Satınalmalar qrupu**

# İndi Ermənistanda nə qanun var, nə də qanunçuluq

**Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın yenidən həbs edilməsi İrəvanda gərginliyi daha da artırıb. Bu il iyunun 25-də İrəvan Apelyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin Ermənistanın sabiq prezidentinin həbsdən azad edilməsi haqqında qərarını dəyişməsindən və Koçaryanı yenidən həbs etməsindən sonra qruplar arasında qarşıdurma bir qədər də kəskinləşib.**



Erməni siyasi ekspertlər, politoloqlar, jurnalistlər bu barədə öz fikir və mülahizələrini irəli sürür, məsələni müxtəlif istiqamətlərdən təhlil etməyə, işin mahiyyətini açmağa, kimin hansı dərəcədə günahkar olduğunu, kimin siyasi təzyiqə əl atdığını ayırd etməyə çalışırlar. "Yerkramas" informasiya agentliyi hakim A. Danielyanın elan etdiyi hökmə toxunur: "Birinci instansiya məhkəməsinin 18 may 2019-cu il tarixli qərarı dəyişdirilsin. Təqsirləndirilən Robert Koçaryan barəsində həbs qərarı qəbul edilsin". Xatırladılır ki, mayın 18-də İrəvanın Ümumi Yurisduksiya Məhkəməsinin hakimi David Qriqoryan Dağlıq Qarabağın separatçı və terrorçu liderləri Bako Saakyan və Arkadi Qukasyanın zaminliyi ilə Koçaryanı həbsdən azad etmişdi.

Məqalədə xatırladılır ki, sabiq prezident 2018-ci ilin iyulundan sonra üçüncü dəfə həbs edilir. Müəllif Koçaryanın müdafiəçisi kimi çıxış edir və əksər erməni mətbuatının da bu mövqedə olduğunu qeyd edərək onun həbsi barədə qərarı əsassız elan edir və "xalq baş naziri" deyəələ saldığı Nikol Paşinyanı siyasi təzyiq göstərməkdə ittiham edir. Məqalə müəllifi keçən ilin aprel-may hadisələrini hətta "dövlət çevrilişi" adlandırır.

Apelyasiya Məhkəməsi Robert Koçaryanla bağlı həbs qərarını 7 saatlıq məhkəmə prosesindən sonra, gecə saat 00.15 radələrində elan edib və Koçaryan yenidən iki ay müddətinə azadlıqdan məhrum olunub. Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisi, general-polkovnik Yuri Xaçaturov da eyni maddə üzrə ittiham edilib. Onun barəsində də iki aylıq həbs qərarı qəbul edilib, ancaq Xaçaturov həmin gecə 5 milyon dram (təxminən 10 min dollar) girov müqabilində azadlığa buraxılıb. Koçaryan və Xaçaturov 2008- ci ilin 1-2 mart hadisələri ilə bağlı cinayət işi üzrə, "başqa şəxslərlə ilkin sövdələşməyə girərək, Ermənistanda Konstitusiya quruluşunu devirməkdə" ittiham olunurlar. Bu barədə Ermənistan Xüsusi İstintaq Xidmətinin yaydığı məlumatda deyilir. Cinayət Məcəlləsində bu cinayət əməli üzrə 10 ildən 15 illədək həbs cəzası nəzərdə tutulur.

Xatırladaq ki, 2008-ci il fevralın 19-da Ermənistanda keçirilən prezident seçkilərində Serj Sarkisyanın qalib gəldiyi elan olunmuş, martın 1-2-də isə "nəticələrin saxtalaşdırıldığı" qənaətində olan minlərlə insan fasiləsiz etiraz aksiyalarına başlamışdı. Hakimiyyət qüvvələri aksiyanı dağıtmaq barədə qərar qəbul etmiş, bunun üçün ordu qüvvələrindən istifadə olunmuş, nəticədə 10 nəfər, o cümlədən 2 polis əməkdaşı həlak olmuş, 200-dən çox insan xəsarət almışdı. Robert Koçaryan mart hadisələri ilə bağlı cinayət işi üzrə ona qarşı irəli sürülən ittihamları rədd edir və bunu "yeni hakimiyyət tərəfindən özünə qarşı təqib" hesab edir. "Bu, açıq-aşkar siyasi təqibdir, qisasdır, - deyə Robert Koçaryan bildirib: "Bu, ifşa etmək deyil. Onlar artıq müqəssirləri təyin ediblər. Bunun ölkə üçün təhlükəsi çox böyükdür. Nəzərə alın ki, ordunun bütün yuxarı təbəqələri ittiham olunur, ordu ittiham olunur". Yada salaq ki, Nikol Paşinyan hakimiyyəti ələ keçirəndən az sonra ordu rəhbərliyindəki şəxsləri və yüksək vəzifə tutan generalların bir hissəsini postlarından azad edib. Onların günahı keçmiş prezidentlərə -Serj Sarkisyana və Robert Koçaryana sadiq qalmaları olub.

Vurğulamaq lazımdır ki, məhkəmə zalından istintaq təcridxanasına aparılanda sabiq prezident bildirib ki, "Ermənistanda nə qanun var, nə də qanunçuluq." Beləliklə, hazırda Koçaryan həbsdədir. Ancaq o, artıq ölkənin Konstitusiya Məhkəməsinə müraciət edib. Müraciətə avqustun 29-da baxılacağı gözlənilir. Ermənistanda hakimiyyətdə olduğu müddətdə kriminal xunta rejimi formalaşdırmış Robert Koçaryan bu yolla özünü ağır cəzadan xilas etməyə çalışır. Ancaq aydın məsələdir ki, baş nazir Nikol Paşinyan ondan asanlıqla əl çəkmək fikrində deyil. Eyni zamanda, erməni mətbuatı onun özünü də demokratiyanı pozmaqda, Koçaryan və Sarkisyan rejiminin yolunu getməkdə ittiham edir. Elə "Yerkramas"da verilmiş yazının mahiyyəti də bundan ibarətdir. Əgər Koçaryan cinayətkardırsa, onda onun siyasətini davam etdirən, məhkəməyə təzyiq etməkdən belə çəkinməyən Nikol Paşinyan kimdir? Üstəlik, son vaxtlar onun reytinqi də kifayət qədər aşağı düşüb. İnsanlar ölkədə yaranmış iqtisadi böhrana görə onu ittiham edir, hakimiyyətə gəlmək üçün yağlı vədlər verdiyini, lakin baş nazir kürsüsünə yiyələndikdən sonra bütün vədlərini unutduğunu bəyan edirlər. Nikol Paşinyanın Moskva ilə münasibətləri isə erməni siyasi dairələri və mediası üçün "qaranlıq koridor" olaraq qalır. Təəccüblüdür ki, Paşinyan Koçaryanın həbsi üçün hər cür siyasi vasitədən istifadə edir, onun müdafiəçilərini belə sıxışdırır, amma Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin Koçaryanla görüşünü mübhəm sükutla qarşılayır. Bəlkə, Paşinyan Moskvanın ona hansı mesajı ünvanladığını yaxşı başa düşmür?! Bəlkə baş nazir anlamır ki, Ermənistanda Qərbyönümlü Paşinyandan başqa da siyasi qüvvələr var?! Əgər Paşinyan bütün bunları anlamırsa və Koçaryanı yenidən həbs etdirirsə, onda Moskva onunla anlayacağı başqa dildə də danışa bilər. Bu da erməni mediasının qənaətidir. İndi Ermənistanda hamı səksəkə içərisində gözləməkdədir, görəsən ölkədəki Qərbyönümlü və Rusiyameyilli qüvvələrin mübarizəsi necə başa çatacaq? Ancaq deyəsən, orada Qərbyönümlülərin qalib çıxacaqlarına inananlar azdır. Çünki Paşinyan tələsik və təmkinsiz siyasəti ilə bu inamı sındırıb.

**Vəli İlyasov,**
***"İki sahil"***

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 119 (7374) / Cümə, 5 iyul 2019-cu il



# İsti havaların əks təsirləri və qorunma üsulları



Yay fəslinin özünəməxsusluqlarından biri də yüksək temperaturlu hava şəraitidir. Ardıcıl olaraq günlərlə davam edən isti havalar meteohəssas insanlar üçün xüsusilə təhlükəlidir. Yüksək temperaturlu hava şəraiti hətta ürəyindən şikayəti olmayan insanlar üçün belə təhlükəli, riskli ola bilər.

Çox isti hava əsasən insanın ürək-damar sistemi üçün problemlər yaradır. Yüksək hərarətdə istənilən fiziki aktivlik, hətta piyada gəzmək belə tərləməni və orqanizmin su itkisini artırır. Bu su ilə birgə lazımi elementlər, minerallar, yəni natrium, maqniy, kalium da yuyulub gedir. Bunlar isə ürəyin normal işləməsi üçün çox lazımdır. Nəticədə ürəyə qan dövranı miqdarı azalır, nəbz yüksəlir, taxikardiya başlayır. Maye azlığı nəticəsində ürək əzələləri daha tez-tez yığılıb açılmağa başlayır. Qanın maye hissəsi plazma istidən azalır, bu da qanın laxtalanmasını artıraraq, tromb, ürək tutulması yaradır. Sağlam insanın ürəyi istiyə yorğunluq, halsızlıq və təngnəfəsliklə reaksiya verir. Ürəyi zəif və xəstə olanlarda isə vəziyyət həyati təhlükəli ola bilər. Ən təhlükəlisi infarkt və tromboemboliyadır. Çox isti havalarda hətta müasir dərmanlar da təsir etmir.

Bəs isti havaların əks təsirindən necə qorunmalı?

Ürəyi zəif olanların isti havada uzaq yola, dağa-bağa, dənizə, kabab yeməyə getməsi arzu olunmur.

Eləcə də isti havada, gündüz alkoqol içib, ağır qidalar qəbul etmək olmaz.

Belə qidalanmaya ürək əlavə güc sərf edir.

Həkimlər ürək dərmanı qəbul edənlərə isti havalarda məclis masasına oturmağı qadağan edir.

Quzu və mal əti toyuq ətinə, quş ətinə, dəniz məhsullarına əvəz olunmalıdır.

Xörəklər az yağ və duzla hazırlanmalıdır.

Yeməklər çox və isti yeyilməməlidir.

Yola çıxanda su və antihipertenziv sprey və ya tablet, yəni təzyiq əleyhinə dərman götürülməlidir.

Metro və avtobusa yelpik və cib ventilyatoru ilə girmək lazımdır.

Susuzluğu yatırtmaq üçün qazlı, şirin su içmək olmaz, çox isti çay da məsləhət deyil.

Suyu az-az, tez-tez içmək lazımdır.

Ürəyi zəif olanlar sıx alt geyimi, rezinli geyimlər, sintetik parçalar istifadə etməməlidir.

Mütləq başında papaq və ya çətirlə gəzməlidir.

Evdə və işdə kondisioner varsa, hava nəmləndirici vasitə də alınmalıdır.

Günorta saatlarında xüsusilə 1-5 arası uzun yol getmək olmaz.

Bütün vacib işləri səhər 12-yə kimi, ya da axşam 6-dan sonraya həll edin.

Bu cür isti hava şəraitində qidalanmaya xüsusilə diqqət yetirmək lazımdır. Ona görə də bir sıra xüsusi məhsullar var ki, onların yayda yeyilməsi orqanizmə müsbət və lazımlı təsir göstərir:

Sağlamolun.az saytında qeyd olunan tövsiyələrə əsasən, bu cür qidalar arasında pomidor mühüm yer tutur. Ürək və damarlar üçün çox faydalı likopinlə zəngin olan pomidor ürək hüceyrələrini qoruyur, damarlarda trombların əmələ gəlməsinin riskini azaldır. Cəfəri də damarlarda trombların əmələ gəlməsinin riskini azaltmaq xüsusiyyətinə malikdir. Ürək-damar sistemi üçün ən faydalı məhsullardan biridir - sərbəst radikalların təsirini azaldır, damarların sağlamlığını qoruyan qara və qırmızı üzümdür. Qanın durulmasına və kapilyarların möhkəmlənməsinə müsbət təsir göstərən moruq meyvəsi də yayın lazımlı qidalarındandır. Balıq isə damarlarda iltihabı azaldır, aterosklerozun inkişafını ləngidir. Süd məhsulları təzyiqi tənzimləyir, ürək üçün faydalıdır. Kalium və maqneziumla zəngin olan banan təzyiqi tənzimləyir, ödemləri azaldır, ürəyin fəaliyyətini yüngülləşdirir. İsti havanın orqanizmə olan mənfi təsirini ən yaxşı azaldan vasitə çökə güllərinin dəmləməsidir. Bu dəmləmə beyinin və ürəyin fəaliyyətinə müsbət təsir edir, ürəyin ritmini və arterial təzyiqi tənzimləyir, sakitləşdirir, yuxunu yaxşılaşdırır. Dəmləməni soyuq halda içmək və su ilə durulaşdırıb uşaqlara da vermək olar.

Əgər rahat yay istirahətinizi isti havanın yaratdığı fəsadlarla korlamaq istəmirsinizsə, ən əsası da sağlamlığınızın qayğısına qalırsınızsa, o zaman yuxarıda qeyd olunan vacib məqamlara əməl etməkdə fayda var.

**Yaqut Ağaşahqızı, *“İki sahil”***



# “Yuxusuzluq geni”

Bir qrup Amerika alimi yuxunun tənzimlənməsində həlledici rol oynayan “Sleepless” “yuxusuzluq geni”ni aşkar etmişdir.

Milçəklər üzərində təcrübə aparan alimlər aşkar ediblər ki, “yuxusuzluq geni” olmayan mutantlar normal milçəklərdən 85% (dişi milçəklər 80%) az yatır, bəziləri hətta tələf olurlar. Bu genin qətiyyən fəaliyyət göstərmədiyi milçəklər normal yatır, lakin uzun müddət oyaq qaldıqda isə qüvvələrini bərpa etməyə onlara xeyli az yuxu lazım gəlir. Bu, aşkara çıxarılmış ikinci yuxu genidir.

Gen xromosomu “Science” jurnalının yazdığına görə, Pensilvaniya Universitetinin mütəxəssisi Amita Seqal yuxuya nəzarətin iki əsas amildən - yuxu müddəti və ona tələbat mexanizmlərindən asılı olduğunu bildirib. “Yuxusuzluq geni” ikinci mexanizmin tərkib hissəsi olub, yuxuya, eləcə də uzun müddət oyaq qaldıqdan sonra bərpa prosesinə təsir göstərir.

Milçəklərlə insanlar təkamül baxımından bir-birindən çox fərqli olsalar da, alimlər bir çox genlərimizin uyğun gəldiyini bildirirlər və insan genlərinin necə fəaliyyət göstərdiyini öyrənmək üçün milçəklər üzərində təcrübə aparırlar. Bu tədqiqatlar əzəli “Biz nə üçün yatırıq?” sualına cavab tapmağa, habelə yuxusuzluqdan əziyyət çəkən bir çox insanların müalicəsinə kömək edə bilər.

A.Seqal və həmkarları bildiriblər ki, doyunca yatmamaq və yuxusuzluq sənaye ölkələrinin başlıca problemi olaraq qalmaqdadır. Xroniki yuxu problemləri həyatın keyfiyyətini, əmək məhsuldarlığını azaldır və ölüm hallarına gətirib çıxarır.

**Roya Rasimqızı, *“İki sahil”***

# “Real” hücumçusunu “Benfika”ya satdı




“Real” hücumçusu Raul de Tomasla vidalaşıb.

Milli.Az goal.az-a istinadən xəbər verir ki, futbolçu ”Benfika”ya satılıb. Portuqaliya klubu bu keçid üçün ”kral klubu”na 24 milyon avro ödəyib. Forvard yeni komandası ilə 5 illik müqavilə imzalayıb.

Qeyd edək ki, ”Real”ın yetirməsi olan 24 yaşlı de Tomas ötən mövsüm ”Rayo Vallekano”da icarə əsasında çıxış edib, La Liqada 33 oyunda 14 qol vurub.

# Lempard “Çelsi”nin baş məşqçisi oldu




Mauritsio Sarri ilə yolları ayıran ”Çelsi”nin yeni baş məşqçisi rəsmən bəlli olub.

Milli.Az sportal.az-a istinadən xəbər verir ki, London təmsilçisini sabiq futbolçusu Frenk Lempard çalışdıracaq. 41 yaşlı mütəxəssislə 3 illik müqavilə imzalanıb.

Lempard London klubundan keçmiş komanda yoldaşı olan ”Çelsi” akademiyasının məşqçisi Codi Morrisi və fitnes hazırlığı ilə məşğul olan Kris Consu da öz məşqçi heyətinə əlavə edəcək. Bundan əlavə, Klod Makelele və akademiya məşqçisi Co Edvards da Lempardın məşqçi kollektivində çalışacaq.

”Çelsi” Lempardın son çalışdırdığı Çempionşip klubu ”Derbi”yə 4,5 milyon avro təzminat ödəyib.

Frenk Lempard 2001-2014-cü illərdə ”Çelsi”də çıxış edib.

Təsisçi:
SOCAR

Baş redaktor:
Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini:
İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan:
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet “İKİ SAHİL”in kompyuter mərkəzində yığılır və “AZƏRBAYCAN” nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 05.07.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 7991
İndeks: 0151, Sifariş: 2177

Qəzetdə “AZƏRTAC”, “OLAYLAR”, “Azadİnform”, “TREND”, SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.